

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

**Heydər Əliyev və Azərbaycanın tarixi inkişafının başlanğıc nöqtəsi - 14 iyul 1969-cu il**



11


SƏS

№ 122 (6805)

14 iyul 2023-cü il.
Qiyməti 60 qəpik


# ABŞ Azərbaycanın yaratdığı yeni reallıqları tam qəbul edir





2

**PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqdir"**

# Fransa - Avropanın xəstə orqanı




8

## İsrailin müdafiə nazirinin Bakıya səfərinin PƏRDƏARXASI



4

## Andrey Petrov: "Qarabağda xüsusi əməliyyat olacaq və silahlılar məhv ediləcək"



7

## Operativlik və şəffaflığın ünvanı



10



## Cəmil Həsənli özünü agentura şəbəkəsinə təslim edib

14

## "Erməni kilsəsinin mənfur əməlləri davam edir"



13

# ABŞ Azərbaycanın yaratdığı yeni reallıqları tam qəbul edir

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqdir"

**Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb.**

Bu barədə iyulun 12-də Azərbaycan Respublikasının Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı bildirib. Dövlətimizin başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.





### BLİNKEN ABŞ-IN ERMƏNİSTAN İLƏ AZƏRBAYCAN ARASINDA SÜLH MÜQAVİLƏSİ ÜZRƏ MÜZAKİRƏLƏRƏ DAVAMLI DƏSTƏYİNİ İFADƏ EDİB

Dövlət katibi, həmçinin danışıqlar prosesində yaradıcı və qarşılıqlı güzəştlərə əsaslanan yanaşmanın vacibliyini qeyd edib. O, Laçın sərhəd-gömrük buraxılış məntəqəsi vasitəsilə keçidin önəmini vurğulayaraq dayanıqlı sülhün əldə edilməsi üçün danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Məlum olduğu kimi, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan-Ermənistan sülh gündəliyi ətrafında intensiv görüşlər davam edir. Və bu gün İkinci Qarabağ müharibəsinin Qalib Sərkərdəsi, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının Ermənistanla aparılan sülh danışıqları prosesində ortaya qoyduğu dəyişməz, qətiyyətli mövqeyi bir daha göstərir ki, məğlub ölkə ilə yalnız məlum 5 prinsip əsasında hazırlanılan sazişə imza atılacaq. Çünki Azərbaycan Qalib tərəf kimi prosesi öz diktəsi ilə idarə edir, Ermənistan isə müxtəlif bəhanələr gətirib vaxt udmaq istəsə də buna nail ola bilmir. Səbəb isə bölgədə marağı olan güclər Cənudi Qafqazda sülhün və təhlükəsizliyin tez bir zamanda təmin olunmasında israrlıdırlar. Və bu gün dünya birliyi də Azərbaycanın haqlı tələbini aydın şəkildə dəstəkləyir. Tərəflər arasında aparılan sülh danışıqları isə həm Rusiyada, həm də Avropada reallaşır.

Bəli, bu gün Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən proses qlobal miqyasda da diqqət mərkəzindədir. Bunu danışıqlar prosesinə olan maraq, eyni zamanda, vasitəçilik cəhdləri də təsdiqləyir. Danışıqlarla bağlı iki istiqamətdə - Rusiya və Avropa İttifaqının moderatorluğu ilə vasitəçilik reallaşdırılsa da, sülh gündəliyi Qərbin, əsasən də ABŞ-ın diqqətindən yayınmır. Bunu, rəsmi Vaşinqtonun davranışları da təsdiqləyir. Ən yüksək səviyyədə danışıqlara münasibət, tərəflərlə sıx əlaqələrin qurulması rəsmi Vaşinqtonun Cənubi Qafqazda qısa zamanda sülh arxitekturasının qurulmasında maraqlı olduğunu göstərir. Hətta ABŞ rəsmi şəxslərinin regional layihələrin perspektivini vurğulaması, həmin layihələrdə ölkələrinin təmsil olunma arzularını dilə gətirməsi də deyilənləri təsdiqləyir.

Sadəcə olaraq, iki ilə yaxındır ki, davam edən Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşması prosesinin uzanması Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə əlaqədardır. Sülhyaratma prosesində vasitəçilik edən Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqların nəticə verməməsinin əsas səbəbi Ermənistanın mövqesizliyidir. Bu ölkə ikiüzlü siyasətini davam etdirməklə, nələrəsə nail olmaq fikrindədir. Bu qeyri-müəyyənlik isə bütövlükdə, prosesin sürətlənməsini, sülhün və təhlükəsizliyin təmin olunmasını ləngidir.

### ABŞ PROSESİN BU XƏTT ÜZRƏ İNKİŞAFINI DƏSTƏKLƏYİR

Azərbaycanın yaratdığı reallıqlar göz önündədir - ölkəmiz böyük bir coğrafiyada stabilləşdirici mövqedən çıxış edir. Bu isə həm də Azərbaycanın tərəfdaşlıq nümunəsi kimi qiymətləndirilməsinə yol açır. Eyni zamanda, dünyanın fövqəlgüc ölkəsi sayılan ABŞ Azərbaycanın formalaşdırmağa çalışdığı əməkdaşlıq platformalarının mühüm nəticələrini indidən görür desək, yanılmarıq. Bunun nəticəsidir ki, Ağ ev iki dövlət arasında münasibətlərin yeni mərhələyə qədəm qoyması üçün mühüm perspektivlər yaratmağa çalışır. Belə ki, ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini diqqətdə saxlaması, sülh gündəliyinin davamlı olması üçün atdığı addımlar təqdirəlayiqdir. Bu hal, eyni zamanda, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində gedən prosesin qlobal miqyasda da diqqət mərkəzində olduğunu deməyə əsas verir.

### "QƏRB YOLU" ADI ALTINDA ERMƏNİSTANIN REGİONDA FRANSA VƏ DİGƏR MƏRKƏZÇİ AVROPA DÖVLƏTLƏRİNİN MARAQLARINA XİDMƏT ETMƏSİ AĞ EV ÜÇÜN QƏBULEDİLMƏZ HALDIR

Bu gün Ermənistanın hazırki mövqeyinin əsas hədəfləri bəllidir. Rəsmi İrəvan bir sıra istiqamətlərdə Azərbaycana qarşı "təzyiq" formalaşdırmağa çalışır ki, buna nail ola bilmir. Bu isə nəticə etibarı ilə İrəvanın özünə qarşı bumeranq effekti verir - ABŞ prosesi düzgün qiymətləndirir və öz mövqeyini ortaya qoyur: "Qərb yolu" adı altında Ermənistanın regionda Fransa və digər mərkəzçi Avropa dövlətlərinin maraqlarına xidmət etməsi Ağ Ev üçün qəbuledilməz haldır.

Beləliklə, ABŞ Ermənistanın oyun qaydalarını pozduğunu açıq şəkildə görür - hətta rəsmi Vaşinqtonu belə öz maraqlarına alət etməyə çalışır. O baxımdan ki, özünü Rusiyaya və Ermənistan ictimaiyyətinə "ABŞ-a yaxın" kimi göstərməklə mühüm məqsədlər güdür. Rusiyadan özünü konpensasiya edir, cəmiyyətdə isə reytinq artırmağı planlaşdırır...

Bir sözlə, ABŞ regionda prosesin inkişaf trayektoriyasını görür və dəyərləndirir. Ermənistanın anti-Rusiya mövqeyinin heç də səmimi olmaması, sadəcə, Fransanın timsalında Aİ-nin maraqlarına xidmət etməsi üçün müvəqqəti xarakter daşıdığı Vaşinqton üçün bəllidir. Ağ Ev anlayır ki, Ermənistan əlinə fürsət düşən kimi, daha doğrusu, Rusiya onun maraqlarını tam qarşılayacaq addımlar atmağa başlayan kimi Qərbdən üz döndərəcək. İndiki halda Ermənistanın əsas hədəfi sülhə mane olmaq, vaxtı uzatmaq, bu müddət ərzində isə hansısa "qazanc" əldə etməkdir. ABŞ isə bununla qəti şəkildə razı deyil. ABŞ-ın qısa zamanda sülhə nail olunması üçün verdiyi anonslar göz önündədir. Məsələn, bir müddət öncə ABŞ-ın Ticarət katibinin qlobal bazarlar üzrə köməkçisi, ABŞ və xarici Ticarət Xidmətləri üzrə baş direktoru Arun Venkataramanın Orta Dəhlizin inkişafını dəstəklədikləri ilə bağlı bəyanatı buna misal sayıla bilər. O qeyd etmişdi ki, bu təşəbbüsün inkişafı, Orta Dəhlizin tam işlək vəziyyətə gətirilməsi ticarət imkanlarını, dövriyyəni artıracaq. Beləliklə, ABŞ-ın timsalında Qərb Azərbaycanın qlobal layihələrə verə biləcəyi töhfəni görür və dəyərləndirir. Ermənistan isə yaxın zamanda sülhü imzalamaq məcburiyyətindədir. Bütün bu faktlar onu göstərir ki, bu gün ABŞ hakimiyyəti Azərbaycan Prezidenti İlham Əliyev cənablarının apardığı siyasəti müsbət xarakterizə edir. Bu, Azərbaycan üçün müsbət hadisədir.

Və Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı da ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib. Bir sözlə, bütün bunlar bir daha göstərir ki, Azərbaycanın Zəfəri və müharibədən sonra yaratdığı yeni reallıqlar dünyanın aparıcı siyasi dairələri tərəfindən qəbul olunur..Bu isə öz növbəsində Prezident İlham Əliyevin müdrik siyasətindən və uğurlu diplomatiyasından xəbər verir.

***RƏFİQƏ KAMALQIZI***

# ABŞ mətbuatı Avropa Parlamentində Güney Azərbaycana həsr olunmuş panel müzakirəsindən yazıb




İranın rəsmi dövlət mediası azərbaycanlıları "həşərat" kimi təqdim edir ki, bu da Holokost zamanı nasistlərin yəhudiləri təsvir tərzinə çox bənzəyir. AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham ABŞ-ın geniş oxucu kütləsinə malik nüfuzlu "Frontpage Magazine" qəzetində dərc olunmuş məqaləsində yazıb.

"Mollaların edamları" sərlövhəli məqalə qeyd olunub ki, Avropa Parlamentinin beynəlxalq məsələlər üzrə müşaviri Manel Msalmi bu yaxınlarda Avropa Parlamentində "İranda azlıqlara edilən zülm: Azərbaycan icması nümunə kimi" mövzusunda panel müzakirəsinə moderatorluq edib. Avropa Parlamentinin üzvləri, İsrail, Fransa və Belçikadan insan haqları təşkilatlarının nümayəndələri, analitiklər və İran üzrə ekspertlərin qatıldığı tədbirdə Güney Azərbaycanda soydaşlarımıza milli zəmində olunan zülmdən bəhs edən qısametrajlı sənədli film nümayiş etdirilib.

Farslarla eyni etnik mənşəyi bölüşməməsi səbəbindən azərbaycanlılar, bəluclar, ərəblər, kürdlər və digər etnik qruplara molla rejiminin onilliklər ərzində zülm etdiyini vurğulayan Msalmi İranda hər il milli diskriminasiya motivi ilə 350-dən çox insanın edam olunduğunu və sözügedən qətllərin İran ərazisi ilə məhdudlaşmayaraq, digər formada Avropada da həyata keçirildiyini diqqətə çatdırıb.

Məqalədə təhlükəsizlik səbəbi ilə adının açıqlanması münasib sayılmayan Güney azərbaycanlı fəal panel iştirakçılarına etdiyi müraciətdə Avropanı Güney Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərə görə molla rejiminə sanksiyalar tətbiq etməyə çağırıb: "Deportasiya və ayrı-seçkiliyin digər formaları ilə üzləşən 30 milyon azərbaycanlını millət kimi tarixdən silmək üçün davamlı cəhdlər göstərilir. Mədəniyyət abidələrimizi dağıdaraq keçmişimizi əlimizdən alır, övladlarımıza Azərbaycan adları qoymağı yasaqlamaqla bizi gələcəyimizdən məhrum edirlər. Sizdən xahiş edirik ki, Tehranın və onun Avropadakı əlaltılarının İran əhalisinin üçdə birinin diskriminasiyasına susmasına imkan verməyəsiniz".

Panel müzakirədə əsas məruzəçi qismində çıxış edən İsrailin ərəb dünyası və İran üzrə ən tanınmış eksperti, bu ölkənin nüfuzlu Bar-İlan Universitetinin şərqşünaslıq elmləri üzrə professoru və Universitetin Yaxın Şərq və İslam Tədqiqatları Mərkəzinin direktoru, Begin-Sadat Strateji Araşdırmalar Mərkəzinin tədqiqatçısı, Tel-Əviv Universitetinin mühazirəçisi doktor Mordexay Kedar diqqətə çatdırıb ki, "İran" adlanan məmləkətə bütün sahələrdə tarix boyu ən böyük töhfələri vermiş azərbaycanlılar sistematik təqib və təcridlə üzləşməkdədirlər. Xüsusən azərbaycanlıların mədəni hüquqları baxımından məruz qaldıqları repressiyalar onlara yadlaşma hissini yaşatmaqla öz ölkələrinə bağlılıqlarını sarsıdır: "Biz İranda azərbaycanlıların sıxışdırılması problemini tanımalı və həll etməliyik. Onların mədəni hüquqlarının inkarı, iqtisadi bərabərsizliyi və siyasi marginallaşması artıq gözardı edilə bilməz. Gəlin, birlikdə ədalət, bərabərlik və Azərbaycan xalqının İranda haqlı yerinin tanınmasını tələb edək". Doktor Kedar vurğulayıb ki, azərbaycanlılar İranda onların hüquqlarını müdafiə etməyə çalışan İsrail Knessetinin 32 deputatının imzasına müdaxilə etməklə ciddi siyasi səhvə yol vermiş Rza Pəhləvinin arxasınca getməməlidirlər.

Müzakirələrdə çıxış edən Avropa Parlamentinin İtaliyadan olan deputatı Françeska Donato bəyan edib ki, teokratik rejimlər və hökumətlər öz idarəçilikləri ilə dini dözümsüzlük yaradırlar və avropalı parlamentarlar etnik qruplara, o cümlədən azərbaycanlılara qarşı istənilən ayrı-seçkiliyə və təqiblərə qarşı mübarizə aparacaqlar. Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.frontpagemag.com/mullahs-executions/.

# Təbiət abidəmiz - Mərkəzi Nəbatat Bağı





**Mühüm təbiət abidəsi kimi Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, təbiətin mühafizəsi və əhalinin bütün təbəqələri üçün elmi araşdırma, tədris və maarifləndirmə baxımından əhəmiyyətli rol oynayır. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan canlı bitki kolleksiyaları yalnız bitkilərin mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir. Yaradılma tarixinə nəzər salsaq görərik ki, Bakı şəhərində ilk dəfə olaraq Botanika bağının yaradılması haqqında təkliflər artıq 1930-cu illərdə irəli sürülüb. O vaxtlar Bakı şəhəri iri neft sənayesi və respublika mərkəzi kimi abadlaşdırılmalı və yaşıllaşdırılmalı idi.**

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

1960-1978-ci illər bağın çiçəkləndiyi illər hesab olunur. Bu illərdə Botanika bağı Bakı, Gəncə, Sumqayıt şəhərləri və Naxçıvan MR-nın, o cümlədən Bakı şəhərinin Yaşıllaşdırma Təsərrüfatı və Abşeronun sənaye müəssisələrinin, məktəb və bağçaların yaşıllaşdırılması üçün 10 mindən artıq ağac, kol və çiçək bitkiləri vermişdir. Bu illərdə Botanika bağının yeni ərazisində botaniki-coğrafi rayonlaşdırma prinsipə görə sahələrin yaradılması işlərinə başlandı. 1977-ci ildə akademik Həsən Əliyevin rəhbərliyi ilə yaradılmış xüsusi komissiya Bakı şəhər Yaşıllaşdırma Tresti, Milli Elmlər Akademiyasının alimləri, Bakı şəhər Sovetinin nümayəndələri ilə birlikdə bağın inkişafı haqqında tədbirlər planı hazırladı. Bununla əlaqədar olaraq 1978-1980-ci illərdə Botanika bağının abadlaşdırılması işlərinə yeni təkan verildi. 1980-ci illərin axırı və 1990-cı illərin əvvəllərində layihələndirilmiş böyük tikililərin, hovuzların inşaası dayandırıldı. AMEA Rəyasət Heyətinin 22 noyabr 2000-ci il tarixli 22/9 saylı qərarı ilə Nəbatat bağının adı dəyişdirilərək "Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağı" adlandırıldı.

## AZƏRBAYCAN FLORASININ GENOFONDUNU QORUYAN ƏRAZİ

Mərkəzi Nəbatat Bağının müasir estetik görünüşünün bərpa edilməsi üçün abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsinə və zəruri quruculuq işlərinin aparılmasına dövlət dəstəyinin artırılması məqsədilə "Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti 2022-ci ilin 5 may tarixində Sərəncam imzalayıb. Sərəncama əsasən, Mərkəzi Nəbatat Bağında abadlıq, yenidənqurma və tikinti işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ilkin olaraq 25,0 (iyirmi beş) milyon manat ayrıldı. Bu gün Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış oldular. Yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər söküldü. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

## QƏDİM ŞƏRQ VƏ MÜASİR QƏRB MEMARLIĞININ SİNTEZİ

Ölkəmizin hər bir yerində aparılan-abadlıq quruculuq işləri onun simasını köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Əsrlər boyu müxtəlif mədəniyyətlərin, dini inancların ahəngdarlıqla qovuşaraq, mükəmməl harmoniya yaratdığı Bakı Qız Qalası, Qala Divarları, Şirvanşahlar Saray Kompleksi, məscidləri, karvansaraları və digər memarlıq abidələri ilə sirli aləmə çevrilən paytaxtımıza yeni çalarlar əlavə olunub. Bura tariximizin daş yaddaşıdır, onun hər parçası keçmişimizin əbədiləşmiş məqamlarını özündə yaşadır. Geniş vüsət alan abadlıq-quruculuq və yenidənqurma işləri paytaxtımıza yeni bir ahəng gətirib. Xüsusilə, böyük parkların, xiyabanların salınması və köhnə tikililərin sökülərək, yenilərinin inşası şəhərimizə yeni çalarlar əlavə edib. Şəhərin simasına xüsusi gözəllik verən yaşıllıqlar Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da təsirsiz ötməyib. Dünyanın iri şəhərləri, xüsusilə paytaxt şəhərlər məxsus olduqları dövlətlərin siyasi-iqtisadi, tariximədəni inkişaf səviyyəsini, eləcə də şəhərsalma mədəniyyətini özündə göstərmiş olur. Küləklər şəhəri kimi tanınan Azərbaycanın paytaxt şəhəri olan Bakı da yüz illər ərzində formalaşan qədim şərq və müasir qərb memarlığının sintezinə əsaslanan özünəməxsus şəhərsalma ənənələrini özündə əks etdirən məkandır. Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində paytaxtımızın adı dünyanın ən gözəl və müasir şəhərləri sırasında hallanır. Bakının görkəmi tamamilə dəyişir, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binaları, sosial və digər qeyri-yaşayış obyektləri sökülərək yenidən qurulur.

## BAKI İNKİŞAFININ YENİ DÖVRÜNDƏ

Bakıdakı Dənizkənarı Milli Parkımız ərazisinin böyüklüyünə görə Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Burada "Baku Kristal Hall"ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. Bakı Bulvarında bərpa edilən "Qu quşları" fəvvarə kompleksi də bu əzəmətə, görkəmə xüsusi bir rəng qatır. "Qu quşları" fəvvarə kompleksi 60 ildən artıq tarixə malikdir. Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın da istifadəyə verilməsi, "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işlərinin aparılması və s. Bakının inkişafının yeni dövrünü yaşadığını təsdiq edir və şəhərimizin gözəlliyinə yeni gözəlliklər qatılır. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Ekoloji fəlakət mənbəyi olan Balaxanıda, Bibiheybət neft mədənlərində, Böyükşorda aparılan işlər nəticəsini verib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Bakıda havanın keyfiyyətinin böyük dərəcədə yaxşılaşdığını diqqətə çəkərək, havanı çirkləndirən bir çox mənbələrin ləğv edildiyini bildirib: "Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıb. İkincisi, havanı və ekologiyanı böyük dərəcədə çirkləndirən "Qara şəhər" idi. indi onun yerində "Ağ şəhər" yerləşir. Bu da, böyük şəhərsalma layihəsidir. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi ekoloji təmiz zonaya çevrilib". Bölgələrimizlə yanaşı, dünyanın qədim neft sənayesi mərkəzi olan paytaxt Bakı da qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək özünün təkrarolunmaz simasını əldə edib. Son illər Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək tamamilə yeni bir simadadır.

***Zümrüd BAYRAMOVA***

## "Hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunuq"

*Prezident İlham Əliyev İsrailin müdafiə nazirini qəbul edib*



İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin müdafiə naziri Yoav Qallantı qəbul edib. AZƏRTAC xəbər verir ki, Yoav Qallant İsrailin Baş naziri Benyamin Netanyahunun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İsrailin Baş nazirinə çatdırmağı xahiş etdi. Söhbət zamanı dövlətimizin başçısı ilə İsrailin müdafiə naziri arasında bu il Münxendə keçirilən görüş xatırlandı. İkitərəfli münasibətlərin inkişafından, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıqdan məmnunluq ifadə edildi. İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolu qeyd olundu. Görüşdə Azərbaycanın İsraildə səfirliyinin açılmasının əməkdaşlığın genişləndirilməsi baxımından önəmi vurğulandı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 25 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Prezident İlham Əliyev "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# İsrailin müdafiə nazirinin Bakıya səfərinin PƏRDƏARXASI

**İsrailin müdafiə naziri Yoav Qallantın Azərbaycana planlaşdırılan səfərinin heç də təsadüfi olmadığı qənaətində hər kəs haqlıdır. Bu səfərin niyə məhz indi planlaşdırıldığı bunu deməyə əsas verir. İsrailli nazirin Azərbaycana səfəri sözsüz ki, məqsədsiz şəkildə ola bilməz. Hələlik qeyd olunur ki, səfərdə məqsəd ölkələr arasında strateji əlaqələri, siyasi əməkdaşlığı gücləndirməkdən, təhlükəsizlik və texnologiya sahəsində əlaqələri genişləndirməkdən ibarətdir, amma hər halda sadalanan istiqamətlərdən də əlavə bir çox məsələlərin müzakirə ediləcəyi təkzib edilə bilməz.**










Təhlil

Regional sabitliyin möhkəmləndirilməsi yollarının müzakirə edəcəyi də istisna deyil. Belə hesab olunur ki, səfər zamanı İsrailin müdafiə nazirinin həmkarları ilə müzakirə edəcəyi məsələlər regional xarakterdə olacaq. İsrailli nazirin dövlətimizin başçısı, cənab Prezident İlham Əliyevlə, müdafiə naziri Zakir Həsənovla və eləcə də dövlət sərhəd xidmətinin rəhbəri ilə görüşünün planlaşdırılması bunu deməyə əsas verir və bölgədə sabitliyin qorunmasının, eləcə də mühafizəsinin hər iki tərəf üçün önəmli olduğunu isbatlayır. Bununla yanaşı, İsrailin müdafiə nazirinin bu səfərinin pərdəarxası məqamlarının olduğu da təkzib edilə bilməz, çünki bu səfər öncəsi baş verən hadisələr tamamilə fərqli bir mənzərənin olduğundan, eləcə də bunun həmin ölkədə diqqətdən yayınmadığından, ən azından, buna laqeyid yanaşılmadığından xəbər verir.

Diqqət çəkən ən ilginc məqam İsrailin müdafiə nazirinin Azərbaycana səfərinin indiki məqamda reallaşdırılması niyyətidir. Bələki, 10 iyul tarixində Dövlət Təhlükəsizliyi Xidmətinin Azərbaycan ərazisində terror aktı törətməyi planlaşdıran xarici ölkə vətəndaşını saxladığını açıqladıqdan sonra israilli nazirin səfərinin planlaşdırması sual və maraq doğurmaya bilməz. Niyə bu səfər məhz həmin o planlaşdırılan terror aktı barədə Dövlət Təhlükəsizliyi Xidmətinin açıqlamasından sonra gündəmə gəlib? Bax bu sual səfərin pərdəarxası məqamları barədə düşünməyə vadar edir. Cinayət əməlləri törətmək niyyəti ilə xarici ölkədən Azərbaycan Respublikasına gəlmiş, Bakı şəhərində yaşadığı müddətdə üçüncü dövlətin ölkəmizdəki səfirliyinin yerləşdiyi ərazinin koordinatlarını müəyyənləşdirmək və terror aktını planlaşdırmaq məqsədilə səfirliyin binasının ətrafında müşahidə aparmış, terror aktında iştirak edə biləcək şəxsləri müəyyən edərək bu fəaliyyətə cəlb etmiş, odlu silah və partlayıcı maddələrin əldə edilməsi, bu məqsədlərlə maliyyə dəstəyinin alınması üçün digər şəxslərlə əlaqəyə girərək sövdələşmiş Əfqanıstan İslam Respublikasının vətəndaşı, 1990-cı il təvəllüdlü Favzan Musa Xanın terror aktı törətməyi planlaşdırması müəyyən edildikdən sonra reallaşmaqda olan səfər heç də təsadüfi sayıla bilməz.

Doğrudur, Dövlət Təhlükəsizliyi Xidməti saxlanılan şəxsin hansı ölkədən gəldiyini də, hansı səfirliyin hədəfdə olduğunu da açıqlamayıb, amma izlər onu deməyə əsas verir ki, həmin o terror aktı törətməyi planlaşdıran şəxs İrandan ölkəmizə keçib və hədəfində də İsrail səfirliyi olub. Daha dəqiq desək, Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı videoda, terror aktı törətməyi planlaşdıran şəxsin saxlanıldığı ərazi, eyni zamanda ələ keçirilən dəftərdə qeyd edilən obyektlərin yeri və digər məlumatlar hücumun İsrail səfirliyinə ediləcəyini deməyə əsas verir. Bu barədə İsrail mediasında da informasiyaların yayılması həmin ölkənin məsələyə ciddi yanaşdığını təsdiqləyir. Heç də israr etmək niyyətində deyilik ki, İsrailin müdafiə nazirinin səfəri məxsusi olaraq bu hadisə ilə bağlıdır. Xeyr. Amma hadisədən cəmi iki gün sonra İsrailin müdafiə naziri Yoav Qallantın Azərbaycana səfər etməsi onu deməyə əsas verir ki, səfər çərçivəsində keçiriləcək görüşlər zamanı bu məsələ, yəni terror aktı törətmək məqsədi ilə İsrail səfirliyinin hədəfə alınması da müzakirə mövzusu ola bilər.

Xatırladaq ki, Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktı ölkəmiz, cəmiyyətimiz tərəfindən çox pis qarşılandı, qınanıldı və hələ də həmin hadisə ilə bağlı narahatlıqlar müşahidə edilməkdədir. Belə bir terror aktının törədilməsi narahatlıq doğurmaya da bilməzdi və bu, hər kəs tərəfindən belə də qəbul olunur. Eyni şəkildə, məhz terror aktı törətmək niyyəti ilə İsrail səfirliyinin hədəfə alınması da məhz həmin ölkə üçün narahatlıq doğurmaya bilməz. Üstəlik, terror aktı planlaşdıraraq, məhz İsrail səfirliyini hədəfə alan şəxsin İran vətəndaşı olması İsrail dövlətini və cəmiyyətini daha çox qıcıqlandırıb desək yanılmarıq. Çünki İsrail ilə İran arasında münasibətlərin hansı vəziyyətdə olduğu hər kəsə bəllidir. İsrailli nazirin bu məsələyə laqeyid yanaşmayacağı, müzakirələr zamanı bu məsələnin də müzakirə mövzusu olacağı barədə məhz buna görə əminliklə qeyd edirik. İsrail tərəfi İranın hansısa terror aktı törətmək niyyəti ilə öz səfirliyini hədəfə almasını qətiyyən həzm edə bilməz və həmin ölkənin müdafiə nazirinin gəlişi ilə bağlı pərdəarxası məqamlar dedikdə nəzərə alınanlar arasında bu məqam da diqqətdən yayınmamalıdır. Çünki İsrail onsuz da İranla barışmaz mövqedədir və müdafiə naziri də daxil olmaqla, həmin ölkə hakimiyyəti qarşı tərəfdən istənilən həmləni, hücumu hər zaman gözləyir və buna hazır olmağı, yeri gələndə layiqli cavab verilməsini təxirəsalınmaz məsələ hesab edir.

İstər Ermənistanla Azərbaycan arasında şərti dövlət sərhədində, istərsə də Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə ermənilərin törətdikləri təxribatların intensivləşdiyi bir vaxtda, məqamda İsrail müdafiə nazirinin Azərbaycana səfəri növbəti diqqətçəkən məqamdır. Əvvəla, İranın təhriki, hətta dəstəyi ilə erməni separatçılarının Azərbaycana qarşı təxribatlara əl atması İsraili qıcıqlandırır, çünki İslam ölkəsi kimi özünü göstərməyə çalışan bir dövlətin müsəlman əhaliyə qarşı çıxaraq, xristian erməniləri təxribatlara sövq edərək bölgədə, regionda daha yaxından iştirak etmək cəhdləri həmin ölkə üçün qəbuledilməzdir. İsrail dövləti İranın nəinki bölgədə mövqeyinin, iştirakının möhkəmlənməsini, ümumiyyətlə, istənilən müstəvidə möhkəmlənməsini qətiyyən istəmir. Bu baxımdan, son təxribatlar fonunda bu səfər zamanı həmin məsələlərin müzakirəsi də çox güman ki, İsrailli nazirin planındadır.

İsrailin hər zaman, xüsusən də 44 günlük müharibə zamanı da, post-müharibə dövründə də Azərbaycanın yanında olduğunu, ölkəmizin haqq işini, qanuni tələblərini dəstəklədiyini hər kəs çox yaxşı bilir. Yaxşı bilir ki, İsrail dövləti ölkəmizlə əlaqələrə, münasibətlərə üstünlük verir və Azərbaycanın da adekvat mövqeyini, yanaşmasını layiqincə qiymətləndirir. İndi belə bir münasibətlərin fonunda, özü də gözlənilən Brüssel görüşü öncəsi və rəsmi Bakının "Qisas-3" və antiterror əməliyyatları anonsu verdiyi zaman İsrailin hadisələrə həssa yanaşması tam məntiqi və gözləniləndir. Məhz həmin o gözlənilən Brüssel görüşünün nəticəsiz olacağı təqdirdə, Bakının müvafiq "tədbirlər" görməsi gözlənildiyi zaman İsrailin müdafiə naziri Yoav Qallantın Azərbaycana səfərini həm də Təl-Əvivin Bakıya dəstəyi kimi qiymətləndirməkdə haqlıyıq. Çünki israilli nazirin görüşəcəyi şəxslər arasında müdafiə naziri və Dövlət Sərhəd Xidməti rəisinin də olması bunu deməyə əsas verir.

***İnam Hacıyev***

# Odlar Yurdundan start götürən Avropa Oyunları Krakovda!

## Dövlət başçısının Sərəncamına əsasən, Gənclər və İdman Nazirliyinə 900 000 (doqquz yüz min) manat vəsait ayrılıb

Beynəlxalq idman arenasında özünə layiqli yer tutan Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Beynəlxalq yarışlarda iştirakı, eləcə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə bu imicə sahib olub. Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda yüzlərlə beynəlxalq yarışlar keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb.

Bütün bu və ya digər uğurlar və nailiyyətlərlə yanaşı, Azərbaycan idmançıları dünya ölkələrində keçirilən yarışlarda qalib olublar. Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün idmanımız özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə müstəqillik əldə etdikdən sonra bütün olimpiya oyunlarında bu idman növü üzrə medallar qazanılıb. Belə ki, Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar. Belə ki, bu yarışda idmançılarımız 16 medal qazandılar ki, onlardan 7-si qızıl medal idi. Bu da Azərbaycan güləşi tarixində rekord nəticə kimi tarixiləşdi. İdman tarixinin yaxın dövrünə nəzər salsaq görərik ki, dünyanın ən mötəbər idman tədbirlərindən olan Olimpiya Oyunlarında Azərbaycan idmançılarının möhtəşəm qələbələr qazanıblar. Olimpiya Oyunlarında Azərbaycan komandasının əldə etdiyi nəticələrə nəzər salsaq, çox böyük uğurların əldə edildiyinin şahidi olarıq. "Atlanta-1996"da 1, "Sidney-2000"də 3, "Afina-2004"də 5, "Pekin-2008"də 7, "London-2012"də 10 medal qazanan Azərbaycan komandası "Rio-2016" Yay Olimpiya Oyunlarında tarixi qələbəyə imza ataraq, 18 medal əldə etdi. İdmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb.













Son illərin idman nailiyyətlərinə nəzər yetirdikdə bir daha şahidi oluruq ki, Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq edib. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.

Minskdə keçirilən İkinci Avropa Oyunlarında Azərbaycan millisinin 10-cu yerdə qərarlaşması idmanımızın növbəti uğuru oldu. 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Bütün bunlar Azərbaycanda idmana dövlət qayğısının müsbət nəticələrini və idmanın inkişaf səviyyəsini əyani göstərir. Bir daha qeyd edək ki, I Avropa Oyunları 2015-ci ildə Bakıda, II Avropa Oyunları isə 4 il sonra Minskdə təşkil olunub. III Avropa Oyunları isə cari ilin iyun ayında Polşanın Krakov şəhərindən start götürdü. Olimpiya idman növü olan müasir beşnövçülük üçüncü Avropa Oyunlarının proqramına daxil edilib. Üçüncü Avropa Oyunlarında atletlər idmanın bu növü üzrə də medallar uğrunda mübarizə aparıblar.

### İDMANÇILARIMIZA DİQQƏT VƏ QAYĞI

Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş "Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında" Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 900 000 (doqquz yüz min) manat vəsait ayrılıb. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi idmançılar arasında rəqabətin səviyyəsi, yarışların çətinlik dərəcəsi, ən yüksək nəticələrə görə medalların sayı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin idmançılara hissə-hissə ödənilməsinə dair qaydanı on beş gün müddətində hazırlayıb təsdiq edəcəkdir.

Vurğulamaq yerinə düşər ki, ölkəmizdə idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etməyə imkan yaradır. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Bu da gəncləri idmana olan marağını daha da artırır və mövcud şərait onları daha da ruhlandırır. Azərbaycan idmançıları bir daha dünyaya öz gücünü, bacarığını göstərdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev-100

# Qüdrətli və müstəqil Azərbaycanın təməlini qoyan LİDER



**Səfa Ağayev**
**YAP İmişli rayon təşkilatının sədri**

Bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi göstərmişdir ki, xalqların və dövlətlərin inkişafında liderlərin çox böyük rolu olmuşdur. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Belə liderlər bizim xalqın tarixində də yetişmiş, Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Onların arasında öz işıqlı əməlləri ilə xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində mühüm xidmətləri olmuş ümummilli lider Heydər Əliyevin adı qürur hissi ilə çəkilir.

Azərbaycanın tarixi şəxsiyyətlərinin övqündə yer alan bu dahi insanın xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan dövlətinin, müstəqilliyinin mövcudluğu üçün xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur. Heydər Əliyev unikal siyasi məktəbin, mükəmməl dövlətçilik və idarəçilik sisteminin banisi, milli inkişafı şərtləndirən ideoloji-siyasi irsin müəllifi kimi əbədiyaşarlıq qazanıb. Ona görə də bu gün dünya xalqları və onların rəhbərləri Azərbaycanı, onun liderini tanıyır, ünvanına gözəl fikirlər söyləyirlər. Bu, xalqımız üçün böyük fəxrdir. Heydər Əliyevin gözəl idarəçilik qabiliyyətinə, yüksək intellektə, qeyri-adi nitq mədəniyyətinə, natiqlik bacarığına malik olması dünyanın məşhur siyasətçiləri, liderləri arasında onun adının həmişə birincilər sırasında çəkilməsinə səbəb olmuşdur. Belə bir faktı göstərmək kifayətdir ki, bir neçə il bundan əvvəl Braziliyanın "Planetin səsi" qəzetinin doqquz dövlətin jurnalistinə ünvanladığı "Dünyanın hansı üç super siyasətçisinin adını çəkə bilərsiniz?" sualına cavab kimi altı dövlətin jurnalisti birinci olaraq Heydər Əliyevin adını çəkmişdir.

Dünyanın ən görkəmli ictimai-siyasi və dövlət xadimləri, ümumən beynəlxalq ictimaiyyət Heydər Əliyevin vətəni - dövləti qarşısındakı xidmətlərinə, dünyada təhlükəsizliyin qorunmasına, iqtisadi-mədəni sahələrdəki məzmunlu fəaliyyətinə görə onu yüksək qiymətləndirmiş, adını həmişə uca tutmuşlar. Bu dahi şəxsiyyət haqqında söylənilən dəyərli, sanballı fikirlərin hamısını sadalamaq imkan xaricində olsa da, bəzilərini diqqətə çatdırmaq yerinə düşər. Bill Klinton: "Prezident Heydər Əliyevin fəaliyyəti Azərbaycanın tərəqqisinə və inkişaf etmiş dövlətə çevrilməsinə xidmət etmişdir". ABŞ-ın keçmiş Dövlət katibi Henri Kissincer: "Heydər Əliyevin uzaqgörən siyasəti ölkənin xalqını firavanlığa, intensiv inkişafa gətirib çıxaracaq". Ukraynanın eks-prezidenti Leonid Kuçma: "Yaroslavl Mudri ordeninin üzərində bir yazı var: "Müdriklik, şöhrət". Bu sözləri tam mənada Heydər Əliyevə aid etmək olar". Heydər Əliyevin gənclərə ünvanladığı ən gözəl kəlamı bu idi: "Mən həmişə yaradanıma, xalqıma, əməyimə arxalanmışam". Bu kəlamdan nəticə çıxararaq gənclərimiz, tələbələrimiz də həmişə əməyə arxalanmalıdırlar.

1969-cu ildən siyasət meydanında parlayan bu nadir insan həlli müşkül siyasi vəziyyətlərdə çevik, ayıq manevretmə qabiliyyəti, tükənməz enerjisi ilə çox keçmədən mərkəzi dairələrə səs salır. Uzun müddət vəzifədə olarkən əlindən tutub çörək verdiyi insanların o, vəzifədən ayrılarkən dönüklük etməsi şübhə yox ki, dahi rəhbəri mənən sıxmamış deyildi. Bu hissləri publisist belə nəql edir: "...adamlar, o iqtidardan düşdükdən sonra necə bəd üz göstərmələri hamıdan əvvəl H.Əliyevin özünə təsir etməli idi və emosional adam olduğu üçün yəqin ki, də etdi".

1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-1980-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

Ümummilli lider Heydər Əliyev 1969-1982-ci illərdə respublika rəhbəri olarkən, tutduğu vəzifəsindən asılı olmayaraq, mərkəzi komitə katibi və raykom katibi də daxil olmaqla, heç bir vəzifəli şəxsin qanunsuz hərəkətini bağışlamırdı. Təbiətən hüquq pozuntularına və qanunsuzluğa, xüsusilə vəzifədən sui-istifadə hallarına qarşı barışmaz mövqe tutan respublika rəhbəri bütün fəaliyyəti dövründə belə hallara qarşı prinsipial mövqeyini heç vaxt dəyişməmiş və bunu tabeliyində olan bütün vəzifəli şəxslərdən tələb etmişdir.Hələ 60-cı illərdə keçmiş Sovetlər Birliyi məkanında ölkəmiz müttəfiq respublikaların sırasında geridə qalanların cərgəsində idi. İqtisadiyyatın müxtəlif sahələrinə dair dövlət planları kəsirlə yerinə yetirilir, qanunçuluğun və dövlət intizamının pozulması faktları adi hal almış, ictimai həyatda laqeydlik və biganəlik baş alıb gedirdi, bir sözlə, ictimai-siyasi həyatın bütün sahələrində gerilik açıq-aşkar özünü göstərirdi. Bakı nefti istər Birinci, istərsə də İkinci Cahan müharibələrində dünyada diqqəti cəlb etsə də, ötən əsrdə 60-cı illərə qədər keçmiş Sovetlər Birliyi məkanında respublikamızı, xalqımızı demək olar ki, tanımırdılar. Lakin 14 iyul 1969-cu il-də Heydər Əliyev respublika partiya təşkilatının rəhbəri seçildikdən sonra vəziyyət əsaslı surətdə dəyişdi. Artıq yetmişinci illərin əvvəllərində ölkənin iqtisadiyyatının, o cümlədən sənaye və kənd təsərrüfatının sıçrayışlı inkişafı başladı.

Ümumiyyətlə, Heydər Əliyevin gərgin əməyi, səmərəli fəaliyyəti nəticəsində ölkənin sənayesində, kənd təsərrüfatında, bir sözlə, iqtisadiyyatın bütün sahələrində, elm-tədris sahəsində, incəsənət və mədəniyyət sahəsində, sosial sahədə, ümumiyyətlə ictimai-siyasi həyatımızın bütün sahələrində indiyə kimi görünməmiş nailiyyətlər əldə edildi. Heydər Əliyev keçmiş Sovetlər Birliyi dövründə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində işlədiyi müddətdə də respublikamızın inkişafı naminə öz qayğısını əsirgəməmiş, kommunist rejiminin qadağalarına, rəsmi Moskvanın təzyiqlərinə baxmayaraq, ölkəmizin daha da inkişafı naminə sovetlər dövründə nə mümkündürsə onu etmişdir. Bu gün Bakını bəzəyən ən möhtəşəm binalar və digər tikililər, məhz, Heydər Əliyevin respublika-ya rəhbərlik etdiyi dövrdə inşa edilmişdir. Respublika Sarayı (indiki Heydər Əliyev Sarayı), "Gülüstan" Sarayı, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI , 54 Bakı Kondisionerlər zavodu, Bakı Metropoliteni stansiyalarının böyük əksəriyyəti, Beynəlxalq hava limanı və s. kimi, nəhəng tikililər həmin illərdə inşa edilmiş və istifadəyə verilmişdi.

1969-1982-ci illərdə Azərbaycanın sürətli inkişafı, adət-ənənəsinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılması bugünkü müstəqilliyimizin təməlinin qoyulmasında böyük rol oynayıb. Azərbaycanın sənayeaqrar respublikasına çevrilməsi də bu istiqamətdə mühüm əhəmiyyət kəsb edib. Ümummilli Lider respublikaya rəhbərlik etdiyi dövrdə bütün fəaliyyəti ilə hər bir azərbaycanlıya Vətən, xalq üçün qurub-yaratmaq, xidmət etmək fəlsəfəsini aşılayıb. 1969-1982-ci illər həm də Azərbaycanda elm və təhsilin inkişaf dövrü kimi yaddaşlara həkk olunub. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz Ulu öndərin respublikaya rəhbərliyindən sonra başlayıb. Ulu Öndər sərt sovet rejimində Vətən, millət naminə həyatını riskə qoyaraq, hər an "millətçi" damğası almaq təhlükəsindən qorxmadan, çəkinmədən azərbaycançılığın ən parlaq səhifələrini yaradıb. O, Azərbaycanda milli ruhun tamamilə sıxışdırılmasına nəinki yol verməyib, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarıb və buna nail olub.

Heydər Əliyevin xalq, Vətən qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan dilinin ölkənin dövlət dili elan edilməsi olub. Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, bu dilin zəngin lüğət tərkibinə yaxşı bələd olan Ulu Öndər yüksəksəviyyəli yığıncaqlarda, müşavirələrdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanıb. O, çox yaxşı bilirdi ki, qazandığı bu böyük hörmət və məhəbbət, eyni zamanda, onun istifadə etdiyi, danışdığı dilə - Azərbaycan dilinə çox böyük hörmət və məhəbbət yaradır. 1970-ci illərin ortalarından başlayaraq SSRİ-yə daxil olan respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirilmişdi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirilmişdi.

Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulayıb ki, Konstitusiya vətəndaşlara təhsil hüququ verir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edildi. Həmin Konstitusiya bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün baza rolunu oynamalı idi və faktiki olaraq oynayırdı. Həmin Konstitusiyada isə elə əvvəldən dövlət dili haqqında maddə yox idi. Ayrı-ayrı respublikalarda qəbul edilmiş konstitusiyaların heç birində həmin maddə öz əksini tapmamışdı. Azərbaycanda isə vəziyyət başqa cür idi. Heydər Əliyev ana dilinin dövlət dili olması uğrunda mübarizəsini davam etdirirdi. De-fakto dövlət dili uğrunda ardıcıl mübarizə aparan respublika rəhbəri həmin dilin Konstitusiyada qeyd olunmamasına dözə bilməzdi. Respublikanın rəhbəri, ziyalıları, bütün xalqı ana dilinin dövlət dili kimi yaşamaq hüququ uğrunda mübarizəyə cəlb edərək bütün qüvvəsi ilə mübarizə aparmış, bütün çətinliklərə və maneələrə böyük hünərlə sinə gərmişdi. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif edilmişdir: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Bu, Heydər Əliyevin öz xalqı, Vətəni, milləti qarşısında göstərdiyi ən böyük xidmətlərindən biri idi.

Nəticədə Azərbaycan Konstitusiyası böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Ulu Öndər bununla gələcək müstəqil dövlətçiliyin milli atributlarından birini məharətlə qoruyub. Bundan sonra isə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail olub. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi müstəqillik illərində də milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin, ana dilimizin qorunması, milli dövlətçiliyin daha da möhkəmləndirilməsi, o cümlədən Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirib, mühüm tarixi fərman və sərəncamlar imzalayıb.

Ulu Öndər müstəqilliyimizin əbədiliyin qorunmasında gənc nəslin hərtərəfli yetişməsini, dövlət işlərinə cəlb edilməsini daim diqqət mərkəzində saxlayıb. Gənclərimizin əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında, ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri olub.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı.

*Ardı Səh. 7*

Əvvəli Səh. 6

# Qüdrətli və müstəqil Azərbaycanın təməlini qoyan LİDER

Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Bu gün Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı-Balakən dəmir yolu, Dağlıq Qarabağın mərkəzə - Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmiryolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü. Məhz bu dövrdə - Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət adamlarının böyük bir dəstəsinə - şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktdır.

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya "irəli çəkilib" müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da "millətçi" damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən - xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu - 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı. O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi. Ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Rəsul Rzanın həlledici köməyi ilə bu sətirlərin müəllifi Kiyevin xəritə fabrikində ilk dəfə olaraq Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail oldu. 1972-ci ildə Ensiklopediyanın Baş redaksiyası Rəsul Rzanın redaktorluğu ilə "Azərbaycan SSR xəritələri" (Azərbaycan və rus dillərində) adlı atlas nəşr etdi. Göstərilən tarix xəritələri həmin atlasa daxil edildi. Lakin "sapı özümüzdən olan baltalar" bütün bu məsələləri Moskvaya çuğulladılar, Ermənistandakı tarixçi "dostlarını" köməyə çağırdılar. Bizə "millətçi", "burjua məfkurəçiləri", "sovet hökumətinin və Rusiyanın düşmənləri" damğasını vurmaq məqsədilə xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş S.Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirtdilər. O zaman "Böyük Sovet Ensiklopediyası" baş redaktorunun birinci müavini, həm də sovet ideologiyasının başında duranlardan biri olan oğul - Şaumyan əlinə düşən fürsətdən istifadə edərək Azərbaycan ziyalılarına zərbə vurmaq üçün özünü odaközə vurdu. Lakin məqsədinə çata bilmədi. Çünki Azərbaycana doğma yurdunun təəssübkeşi olan qüdrətli bir şəxsiyyət başçılıq edirdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər!!!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni mərhələyə-yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir. Faktlar özü hər şeyi daha yaxşı sübut edir!

# Andrey Petrov: "Qarabağda xüsusi əməliyyat olacaq və silahlılar məhv ediləcək"

## Rusiyalı ekspert: Bu, qaçılmazdır və bütün qanunsuz silahlı birləşmələrin tamamilə məhv edilməsi ilə başa çatacaq, Azərbaycana qarşı cinayətlərdə günahkar olanlar öz cəzalarını alacaqlar

***Separatçıların lideri Arutyunyanın Putinə və digər separatçıların, o cümlədən Vardanyanın bəyanatları açıq şəkildə göstərir ki, Qarabağdakı erməni quldur dəstələri hələ də tərksilah olmaq, Azərbaycanla inzibati və qanunvericilik nəzarəti ilə razılaşmaq və bu ölkə səlahiyyətliləri ilə birbaşa dialoq qurmaq istəmirlər. Oradan əksinə, qisas çağırışları səslənir, Azərbaycan hərbçilərinin atəşə tutulması davam edir. Bəs separatçı liderlər nəyə ümid edir? Onlara aydın deyilmi ki, əslində onların qiyamət günü gəlib çatıb və Qarabağda nifaq salmaq onlar üçün nəinki faydasız, həm də son dərəcə risklidir. Azərbaycan Qarabağı bütün silahlı birləşmələrdən və separatçıların qeyri-qanuni hakimiyyətindən tam təmizləmək üçün demək olar ki, hər an xüsusi əməliyyata başlaya bilər, çünki bütün səbr sonda tükənəcək.***




"Vestnik Kavkaza" agentliyinin baş direktorunun müavini, rusiyalı politoloq Andrey Petrovun caliber.az-a müsahibəsində qeyd etdiyi kimi, paradoks odur ki, Azərbaycanın Qarabağda qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatı böyük ehtimalla liderlərin həbsini əhatə edəcək. Prinsipcə İrəvanın maraqlarının məntiqinə uyğun gələn Qarabağ separatizmi sonlanacaq.

"Nikol Paşinyan Qarabağdakı separatçı layihədən özü üçün mümkün qədər ağrısız şəkildə qurtulmaq istərdi. Yəni onun heç bir günahı olmamalıdır, Qarabağda baş verənlərə görə heç bir məsuliyyət daşımamalı, hadisələrə təsir edə bilməməlidir. Və biz görürük ki, hadisələr indi təxminən bu məcrada inkişaf edir: Azərbaycan Laçın rayonunda nəzarət-buraxılış məntəqəsi yaradıb və Xankəndinə silah və yaraqların tədarükünü tamamilə dayandırıb. Yerevan, əlbəttə ki, rəsmi səviyyədə Rusiyadan bu istiqamətdə nəsə ölçü götürməsini tələb etməkdə davam edir, lakin burada tam aydındır ki, bütün bu proses Azərbaycan və Rusiya tərəfləri arasında tam anlaşma şəraitində baş verib",- rusiyalı politoloq vurğulayıb.

Yəni, politoloqun fikrincə, Qarabağda separatçı layihənin bağlanmasının birinci mərhələsi başa çatıb, o zaman Ermənistandakı separatçılarla qüvvələr arasında fiziki əlaqə kəsilib, çünki onların arasında Azərbaycan sərhədçiləri dayanıb və onlardan yan keçmək üçün heç bir boşluq yoxdur.

"Onlar öz istəkləri ilə Qarabağı tərk edib Azərbaycan hakimiyyətinə təslim olmaq istəmədikləri üçün silahlı təxribatları davam etdirirlər, indi Qarabağ iqtisadi rayonunda separatizmin bütün elementlərinin məhv edildiyi ikinci mərhələ başlamalıdır. Axı orada kifayət qədər erməni yaraqlıları qalıb, onlar Azərbaycan ədalətindən hələ Birinci Qarabağ müharibəsində törətdikləri cinayətlərə görə layiqli cəzalarını gözləyirlər. Xüsusən də Ermənistanda heç kim onları gözləmir, Nikol Paşinyana lazım deyillər, üstəlik, onlar hətta onun üçün təhlükəlidirlər, çünki Qarabağ klanının maraqlarına sadiq qalırlar. Onların özləri də yaşlarına görə itirəcəkləri heç nə yoxdur və gənc qohumlarını çoxdan Ermənistana və ya xaricə göndəriblər. Ona görə də Qarabağ ermənilərinin Azərbaycan hüquq müstəvisinə son reinteqrasiyasına qədər Qarabağda maksimum müqavimət göstərəcəklər sırasındadırlar. Azərbaycan isə onları zərərsizləşdirmək üçün müəyyən qüvvələrdən istifadə etməli olacaq",- rusiyalı politoloq qeyd edib.

Beləliklə, A.Petrovun fikrincə, belə bir xüsusi əməliyyat nəticəsində Qarabağ separatçıları Qarabağdan tamamilə çıxarılacaq, lakin İrəvanın Azərbaycana qarşı yeni ittihamlar uydurmaq imkanı olacaq. Əvvəla, o, guya Qarabağın erməni əhalisinin hüquqlarını pozur. Bakı isə bu cür ittihamlara hazır olmalıdır. Amma ən əsası təbii ki, separatçıların təzyiqindən qurtulan etnik erməni əhalisinin Azərbaycan hakimiyyəti ilə ünsiyyət dili tapmasıdır.

"Qarabağdakı erməni əhalisinin əksəriyyətinə gəlincə, mən hesab edirəm ki, ümumilikdə onlar Azərbaycanın inzibati-mülki nəzarəti altında yaşamaq perspektivinə hazırdırlar. Və burada vacibdir ki, Qarabağ separatçılarının məhv edilməsi əməliyyatı ilə paralel olaraq, bütün normal, qanuna tabe olan yerli ermənilərin Azərbaycan hakimiyyətinə vətəndaşlıq üçün şəxsən- təkbaşına, heç nədən qorxmadan müraciət etmək imkanı olsun. Çünki aydındır ki, separatçıların əsas vəzifəsi məhz belə fərdi iradə təzahürünün qarşısını almaqdır. Axı o zaman onların bütün rejimi bir gecədə dağılacaq.

Əminəm ki, belə bir xüsusi əməliyyat olacaq, bu, qaçılmazdır və bütün qanunsuz silahlı birləşmələrin tamamilə məhv edilməsi ilə başa çatacaq və Azərbaycana qarşı cinayətlərdə günahkar olanlar öz cəzalarını alacaqlar, buna əminəm"- Petrov yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*

# Fransa - Avropanın xəstə orqanı

**Fransanın "Le Figaro" nəşri yazır ki, Nanterredə bir yeniyetmənin qətlindən sonra Fransanı bürüyən zorakılıqların amansız dalğası bu ölkənin xəstə mahiyyətini ortaya qoydu. Maliyyə, siyasi və sosial baxımdan iflas edən və reallıqdan qopmuş hakimiyyət vəziyyəti öz əlinə ala bilmir. Əksər demokratiyalar iğtişaşlar və zorakılıq hadisələri ilə yaxından tanışdır. Onların fonunda Fransa etiraz hərəkatlarının miqyasının artması və ictimai asayiş üzərində dövlət nəzarətinin itirilməsi səbəbindən istisna kimi görünür.**




Fransanı bürümüş zorakılıq dalğasının nəticəsi 2005-ci il iğtişaşlarının nəticələrini aşır və sağlam düşüncəyə ziddir. Zorakılığın baş verməsi fransız millətinin parçalanması prosesinin şübhəsiz sürətləndiyini nümayiş etdirir. Bu özbaşınalıq sərhəd tanımır və həm insanlara, həm də onların malına aiddir. Zorakılıq təkcə prioritet deyilən sahələrlə məhdudlaşmır, bütün sahələri əhatə edib. O, ilk növbədə dövlət hakimiyyətinə hücum edir, binalara və məmurlara ziyan vurur, eləcə də mağazaları, bankları və sığorta şirkətlərini məhv edir.

6 yanvar 2021-ci ildə Kapitoliyə basqın edən fəallar və üsyançıların etiraz hərəkətləri və zorakılıq alovlarını gördü. Amma nümayişlərin miqyasının artması və nəzarətin itirilməsi səbəbindən Fransa istisnadır. Dövlət tərəfindən ictimai asayişin qorunması əsl probleme çevrilib. 2015-ci ildən bəri dörd güclü etiraz aksiyası keçirilib, buna hərəkat da demək olar. Son hadisələr isə getdikcə soyuq vətəndaş müharibəsi mühiti yaradır. Xüsusən, Afrika əsilli Fransa vətəndaşlarının etiraz dalğası Respublikanın təsisat və dəyərlərinin sabitliyinin pozulmasına gətirib çıxarıb. "Sarı jiletlilər" tənəzzülün baş verdiyini göstərdi və periferik Fransadan imtina hissini daha da gücləndirdi. Pensiya islahatına qarşı kütləvi etirazlar orta təbəqənin onların yoxsullaşmasından narahatlığını göstərdi. Nəhayət, şəhərətrafı iğtişaşlar sakinləri dövlətin qanunları ilə deyil, narkotik ticarəti qaydaları və onların müvafiq icmaları ilə idarə olunan bölücü bir cəmiyyətdə yaşayan bəzi məhəllələrdə ədalətin olmadığını ortaya qoydu.



## Makron və fransızlar

Bu iğtişaş və qəzəbin təzahürlərinin müxtəlifliyi sübut edir ki, onların mənbəyini cəmiyyətin və ya dövlətin sistemli irqçiliyində axtarmaq lazımdır. Əsl səbəblər isə Avropanın xəstə orqanına çevrilmiş Fransanın tənəzzülünün sürətlənməsində görmək lazımdır. Sıfır artım və aşağı məhsuldarlıqla iflas edən iqtisadiyyat, onilliyin sonuna qədər Fransanın dünyanın ən yaxşı on iqtisadi gücü reytinqindən çıxacağını göstərir. Sosial iflas göz qabağındadır, adambaşına düşən sərvət Almaniyadan 15% aşağıdır, kütləvi işsizlik və yoxsulluq 9 milyondan çox insanı əhatə edir. Eləcə də dövlət borcu 3 trilyon avrodan çox olan maliyyə iflası və ÜDM-in 146%-ni təşkil edən özəl borc, eləcə də ÜDM-in 7%-i həcmində ticarət kəsiri qarşıda fransızları nələrin gözlədiyinə bir işarədir. Fransızların 70%-nin gəliri tamamilə sosial yardımdan asılı olduğundan vətəndaşlığı məhv edən sosial dövlətdə sakinlərin müflis olmasını şərtləndirir. Nəzarətsiz immiqrasiya məsələsi də insanları narahat edir. ÜDM-in 58%-ni inhisara alan, təhlükəsizliyin qorunması, xüsusən də əsas təhsil, səhiyyə və nəqliyyat xidmətlərinin göstərilməsi kimi əsas vəzifəsini yerinə yetirə bilməyən, artıq çəkisi olan və gücsüz bir dövlətin siyasi iflası göz qabağındadır. Əxlaqi iflas artan nifrət, zorakılıq və qorxu ilə əlaqələndirilir ki, bu da vətəndaşların demokratiyaya inamsızlığını artırır və hakimiyyətə gəlmək üçün ifrat sağa meyllənir.

Belə bir ciddi vəziyyət qarşısında hələ də Fransa liderlərinin ölkənin keçdiyi və fransızları 1930-cu illərə aparan dərin böhranı həll etmək istəmədiyini görürük. Zorakılığın səviyyəsi nə qədər yüksəkdirsə, cəmiyyət bir o qədər parçalanır, millət parçalanır, daxili və xarici təhlükələr bir o qədər təhlükəli olur, heç nə dəyişmir. İğtişaşlarla üzləşən Emmanuel Makron yalnız bunları deyib: "Nəticə çıxarmazdan əvvəl hadisələri təsnif etməliyik" və sonra Yelisey sarayında şəhər merləri üçün psixoloji yardım şöbəsi təşkil etməklə kifayətlənib. Bruno Le Maire, qanuna zidd olaraq, etirazların xərclərini sığortaçıların üzərinə qoyaraq, yanan və talan edilmiş dükanların maaşlarının uzadılacağını və ya kommunal ödənişlərin təxirə salındığını açıqlayıb.

Makron hakimiyyəti baş verənlərin ölkənin uçuruma yuvarlanmasına hesablandığını qəbul edir və bunu milli sarsıntı hesab edir. Fransa hakimiyyəti etiraf edir ki, çox aydın prioritetlər - istehsal və innovasiya, təhsilə ciddi investisiya, immiqrasiyanın ciddi tənzimlənməsi ilə inteqrasiyanın canlanması, inkişaf, azadlıq üçün zəruri olan ictimai nizamın bərpası, dövlətin suveren missiyalarına yönləndirilməsi və hakimiyyətin güclü mərkəzsizləşdirilməsi kimi faktorlara ciddi əməl etmək lazımdır. Bu isə Emmanuel Makrona beş illik prezidentlik müddətini yenidən nəzərdən keçirmək imkanı verə bilər. O, ilk növbədə Fransanın bərpası ilə məşğul olmaq üçün öz siyasətini kökündən dəyişdirməlidir. Bunsuz ona nə Avropada, nə də dünyada etibar edilməyəcək.

## Fransa artıq Avropa üçün model deyil

"Le Figaro" yazır ki, avropalılar Fransanın taleyindən narahatdırlar. Fransa Avropa İttifaqında (Aİ ) öz əhalisinin təhlükəsizliyini təmin edə bilməyən dövlət imici qazanıb. "Gözəl Fransa" bu gün qorxudan titrəyir. "Fransa" adlı gəminin ölümü ona görə daha



kədərlidir ki, bir vaxtlar bütün Avropa ona heyran idi. Artıq Fransaya bir neçə il bundan əvvəl batan "Belle France" adlı gəmi kimi baxırlar. Bu gün Fransa vətəndaşlarının ən yüksək vergi ödəyicisi olduğu halda polis küçələrdə onların təhlükəsizliyinə təminat verə bilmir. Bu gün şəhərlərdə məktəblər, maşınlar yandırılır, dövlət məmurlarının, bələdiyyə sədrlərinin evinə hücumlar edilir. Bu gün bu dövlət 3 trilyon avro borc içində çapalayır.

Bu borc haradan gəlib, haradan yaranıb? Axı uzun illər bu torpaqda nə müharibə, nə nəhəng sunami kimi bir fəlakət olmayıb.

## Müharibədən sonrakı üç onillik

Fransa iki dünya müharibəsində General de Qollun dediyi kimi "böyük bəlalar" yaşayıb. Buna baxmayaraq 1945-ci ildən sonra ölkənin De Qoll və Pompidunun dövründə hər şeyi var idi. 1960-1970-ci illərdə Şarl de Qoll, Georges Pompidu və Raymond Barre kimi dövlət xadimlərinin rəhbərlik etdiyi Fransa hökumətinin səmərəli fəaliyyəti qonşu ölkələri heyrətdə buraxmışdı. Fransa əvvəlcə de Qoll, sonra onun varisi Georges Pompidu vəfat edənə qədər öz dəyərlərinə sadiq, birlik nümayiş etdirən bir cəmiyyət idi. Hökumətin hörməti var idi.



## Çətinliyin başlanğıcı

1981-ci ildə hakimiyyətə gələn sosialistlər Fransanı əbədi olaraq sərt siyasətdən uzaqlaşdıraraq, yalançı lal rahatlığa itələdilər, sanki güc hüquqla əlaqəli bir anlayış idi və buna görə də qadağaya məruz qaldı. Milli təhsilin zəifliyi ilə mühacirətin əlbir olması böyük faciə idi. Sol təmayüllü liberal nazirlər utanmadan öz uşaqlarını özəl məktəblərə göndərməyə başladılar və çoxdan səyahətlərini dayandırdıqları fəhlə kəndlərində baş verən zərərli dəyişiklikləri görmədilər.

Fransa Sosialist Partiyasının vədləri ilə onun real siyasəti arasında faciəvi uyğunsuzluq ondan ibarətdir ki, o, bərabərsizliyi azaltmaq əvəzinə, artırıb. Böyük burjuaların öz təhlükəsizliyini və uşaqlarının təhsilini təmin etmək üçün həmişə imkanları olub. Lakin şəhər məktəblərində (xüsusilə yoxsul şəhərətrafı ərazilərdə) təhlükəsizliyin olmaması və təhsil səviyyəsinin aşağı düşməsi minimum əmək haqqı olan insanlara, xüsusən də uşaqlı ailələrə təsir etdi. Siyasi baxımdan nəticə Fransa Sosialist Partiyasının reytinqində başgicəlləndirici eniş oldu (son prezident seçkilərində 1,74%).



## Həm sağın, həm də solun altında

Son qırx illik tənəzzüldə sağlar zaman-zaman hakimiyyətə qayıdıblar və çox az iş görüblər. Solların təsiri isə bir qədər güclü olub. Prezident Şirakın məcburi hərbi xidməti ləğv etmək istəyi, vaxtilə daxili işlər naziri olmuş Sarkozinin "ikiqat cəza"nı (xarici cinayətkarların dərhal ölkədən çıxarılması) ləğv etməsi də dediklərimizə sübutdur. Qırx il miqrasiya və məktəbə razılıq verdikdən sonra Fransanın siması dəyişdi. Dövlət şəhərətrafı qəsəbələrdə ənənəvi fransız dəyərlərinə heç bir aidiyyatı olmayan paralel cəmiyyətin yaradılmasına imkan yaratdı.

Ən təəccüblüsü odur ki, Fransa Polşa və Macarıstan kimi digər Avropa ölkələrinə "multikulturalizm" dərsi verir. Lakin avropalı qonşuları fransızların təklif etdiyi yaşamaq şərtlərini qəbul etmək istəmirlər.

"Əl-Əyyam" qəzetində yazılan məqalədə müəllif qeyd edir ki, Fransanın bütün böyük şəhərlərini bürümüş şiddətli etirazlar ölkədəki dərin daxili böhranların təzahürüdür. Onlar xalqın əcdadlarından miras qalmış gizli qəzəbini üzə çıxarıb - mühacirlər, xüsusən də Afrika ölkələrindən olanlar narazılıqlarını gizlətmirlər. Polisin Əlcəzair əsilli 17 yaşlı yeniyetməni güllələməsindən sonra demək olar ki, iki həftədir ki, iğtişaşlar səngimir. Son gün hər şey nisbətən sakit kimi görünür. Bəlkə fırtınadan əvvəlki sakitlikdir? Bu, kül altında oddur, közlər hər an yanmağa davam edə bilər. Üfürmək kifayətdir ki, kül yenidən alovlansın. Fransa polisinin məlumatına görə, həbs edilən minlərlə insanın 70%-i 17 yaşdan aşağıdır. Müstəmləkəçiliyin irsi bu günə və gələcəyə təsir edir. Müstəmləkə irsinin inkarı yalnız atəşə yağ qatır. Haqsızlıq, alçaldılma, bərabərsizlik hissi insanların şüurunda dərin kök salıb. Burada yeni yanaşmalar tələb olunur. Keçmişin günahlarını tanımaq və üzr istəmək, Fransa Respublikasının qanunlarına və dəyərlərinə uyğun olaraq ölkə vətəndaşları arasında münasibətləri gücləndirməyə çalışmaq lazımdır. Keçmişi inkar etməyi və ərəb və Afrika əsilli Fransa vətəndaşlarına qarşı aşağılamağı dayandırmaq gərəkdir. Onlara vurulan "Ölkələrinizə qayıdın" eyhamı hadisələri daha da gərginləşdirir.

İndi Fransa onların ölkəsidir. Söhbət Fransanın həyatında artıq təsadüfi yoldaş olmayan altı milyon vətəndaşdan, əhalinin əhəmiyyətli bir hissəsindən gedir. Onlar indi hadisələrin mərkəzindədirlər və onlarsız gələcəklə bağlı ciddi söhbət mümkün deyil. Qəzəb və ədalətsizlik hissi nəsildən-nəslə ötürülür. Ərəblərin və afrikalıların Fransa cəmiyyətinə inteqrasiyası uğursuz olub. Yeni yanaşmalara ehtiyac var. Fransa, Makron, sağlar, solar bunu bacara biləcəklərmi? Təəssüf ki, bu suala müsbət cavab vermək mümkün deyil.





## Jak Şirakdan Makrona qədər...

2005-ci ildə, prezident Jak Şirakın dövründə Fransanı bürüyən kütləvi etirazlar 2023-cü ildə də oxşar şəraitdə təkrarlanır. 2005-ci il oktyabrın 27-də başlayan iğtişaşlar Parisi tamamilə iflic vəziyyətinə saldı. İctimai və şəxsi binalar dağıdıldı, avtomobillər yandırıldı. Noyabrın 8-də isə Jak Şirak fövqəladə vəziyyət elan etdi. Minlərlə vətəndaş həbs edildi. Əvəzində prezidentin imici çox sarsıldı. Şirak və onun iddialı daxili işlər naziri Nikola Sarkozi arasında ziddiyyət yarandı. Məşhur fransız jurnalisti Erik Ruulot xatırlayır: "Nicolas Sarkozinin iğtişaşlardan düz iki il sonra Fransa prezidentliyinə namizədliyi irəli sürüləndə mən Qahirədə idim. Sonra o, fransız jurnalistlərin qarşısında Şirak haqqında aşağılayıcı ifadələr işlətdi".

Şirak Bastiliya Günü münasibətilə televiziyada çıxış edəndə Sarkozi "Bu cəfəngiyatı nə vaxta qədər dinləyə bilərsiniz?" sözləri ilə televizoru söndürməyi xahiş edib. Yelisey Sarayını tərk etdikdən sonra Şirak öz xatirələrində daxili işlər nazirini və varisini ifşa və ələ salmaqla cavab verdi. Maraqlıdır ki, onların hər ikisi sonradan korrupsiya ittihamı ilə məhkəmə qarşısına çıxdı. Bu, Fransanın hakimiyyət sistemində çatları aşkar etdi və nəticədə çatlar xətlərə çevrildi. Fransanın siyasi elitası (respublikaçılar və sosialistlər, "sağ" və "sol") böhrana girdi. Gənc bankir Emmanuel Makron tamamilə böhran və korrupsiyaya qərq olmuş siyasi elitanın dəstəyi sayəsində prezident seçkilərində qalib gəldi və Fransanın yeni prezidenti oldu. O, bu böhranı həll etmək, siyasi sistemdə islahatlar aparmaq istəyirdi, amma heç nə alınmadı. Makron yalnız ölkəsinin Afrikadakı nüfuzunu və Qərb ittifaqını sarsıtmadı, o həm də bütün fransız əhlini ümidsizliyə düçar etdi.

*V.VƏLİYEV*

# Operativlik və şəffaflığın ünvanı

*"ASAN xidmət" mərkəzləri dövlət başçısının 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılıb*

**Şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi daşıyan "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşma modelidir. Bu model vətəndaş maraqlarına xidmət edir və yeni dövrün çağırışlarından irəli gələn xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqidir. Bu gün Azərbaycan brendi olan "ASAN xidmət" "vahid məkan" prinsipi əsasında fəaliyyət göstərir. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur ki, bu vətəndaş məmnunluğuna səbəb olub.**







Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində bildirib ki, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir: "Yəni, "ASAN xidmət"in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq". "ASAN xidmət" mərkəzləri "vahid məkan" prinsipi əsasında fəaliyyət göstərir. "ASAN" modelinin altı əsas prinsipi var: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq. Mərkəzlərdə dövlət xidmətləri əlaqələndirilmiş şəkildə fəaliyyət göstərir. "ASAN xidmət" mərkəzlərində vətəndaşlara xidmət daha yaxşı xidmət göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur. Hər mərkəzdə təxminən 100-ə yaxın könüllü çalışır. ASAN Könüllüləri Gənclər Təşkilatı "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən könüllüləri birləşdirir. Təşkilat 2013-cü ildə yaradılıb. Elə həmin il təşkilatın ilk qurultayı keçirilib. Təşkilat könüllülər üçün təlimlər, müxtəlif layihələr, yay məktəbləri təşkil edir.

## "ASAN XİDMƏT" MƏRKƏZLƏRİNƏ 60 MİLYONDAN ÇOX MÜRACİƏT EDİLİB

Vurğulamaq yerinə düşər ki, 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk "ASAN xidmət" mərkəzinin açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirirməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir. Həmin zamandan ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır. Bildiyimiz kimi, 3 may 2013-ci ildə "Asan xidmət"in Sumqayıt mərkəzinin açılışı oldu. Bundan bir neçə həftə sonra, mayın 24-də Bakıda ikinci "ASAN xidmət" mərkəzinin açılışı həyata keçirildi. Bu mərkəz iyunun 5-də vətəndaşlara xidmət göstərməyə başlayıb. 17 sentyabr 2013-cü ildə Bakıda üçüncü mərkəzi açıldı. 2013-cü ilin sonlarında, dekabrın 21-də Azərbaycanda sayca beşinci "ASAN xidmət" mərkəzinin açılışı oldu. Bu mərkəz Gəncədə fəaliyyətə başladı. 23 yanvar 2014-cü ildə "ASAN xidmət" mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatdı.

Bakıda sayca dördüncü "ASAN xidmət" mərkəzinin açılışı isə 2014-cü ildə mayın 7-də oldu. Həmin ilin yayında "ASAN xidmət" səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə "Uğur 2013" mükafatına layiq görüldü. 2014-cü ilin dekabr ayının 15-də Sabirabadda "ASAN xidmət" mərkəzinin açılışı oldu. Daha sonra Bərdədə, Bakıda, Masallı və Qəbələdə, Qubada, Mingəçevirdə, İmişli də və Şəkidə, Şamaxıda, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə "Asan xidmət" mərkəzləri fəaliyyətə başlayıb. 2021-ci ildə 6 saylı Bakı "ASAN xidmət" mərkəzi, 2022-ci ildə 2 saylı Gəncə regional "ASAN xidmət" mərkəzi, 7 saylı Bakı "ASAN xidmət" mərkəzi və 2 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzi, 2023-cü ildə Salyan regional "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb. İndiyə qədər "ASAN xidmət" mərkəzlərinə 60 milyondan çox müraciət edilib. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. 2013-cü ilin iyunun 1-dən etibarən artıq "ASAN xidmət"in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. 2013-cü ilin iyunun 1-dən etibarən "ASAN xidmət"in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan da istifadə olunur. Səyyar avtobuslar hər bölgədə təxminən iki həftə qalırlar. Hal-hazırda xidmət göstərən səyyar avtobusların sayı ondur. Bakı və Sumqayıt şəhərində qeydiyyatda olan vətəndaşlar bu xidmətdən sifarişlə istifadə edə bilirlər.

Diqqətə çatdıraq ki, dövlət başçısının 2016-cı ilin mayında imzaladığı Fərmanla "ASAN kommunal" mərkəzlərinin yaradılması Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılmışdı və qısa müddətdə "ASAN kommunal" xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər həyata keçirildi. "ASAN Kommunal" mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin onlarla növü kommunal xidmətləri göstərilir.

## "ASAN XİDMƏT"Ə DÜNYADA ARTAN MARAQ

Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb.

Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar "ASAN xidmət"in fəaliyyətini yüksək qiymətləndirirlər: "BMT "ASAN"ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir". "Uğur 2013" "səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrəgörə" nominasiyasının qalibi olub. İSO 9001:2008 idarəetmə standartı üzrəbeynəlxalq sertifikatı alıb. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

## "ASAN XİDMƏT" KİMİ, DOST MƏRKƏZLƏRİ DƏ BÜTÜN ÖLKƏMİZİ ƏHATƏ EDƏCƏK"

Ölkəmizdə bu və ya digər layihələrin reallaşması onu göstərir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər insanların rifahının daha da yüksəlməsinə yönəldilib. Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Bu gün ölkəmizdə "ASAN xidmət" mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır. Ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri hər bir vətəndaşda məmnunluq yaradır. Vətəndaşların böyük etibarını qazanıb. Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilib, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST konsepsiyası çərçivəsində istifadəyə verilən mərkəzlərdə vətəndaşların məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji xidmət olmaqla, xidmətlərdən rahatlıqla yararlana bilirlər.

Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir.

***Zümrüd BAYRAMOVA***



# Heydər Əliyev və Azərbaycanın tarixi inkişafının başlanğıc nöqtəsi - 14 iyul 1969-cu il

**Şəxsiyyətlər tarix yaradır. Ancaq elə şəxsiyyətlər də var ki, onlar bütöv bir xalqın gələcək taleyini həll edir. Bəzən onların həyatından, taleyindən, fəaliyyətindən danışmaq üçün bütöv bir xalqın, ölkənin tarixini vərəqləmək, onu dərindən bilmək lazım gəlir. Xalqımız da hər zaman Azərbaycanın qurucusu, dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır, yarım əsrdən artıqdır ki, onun işıqlı yolu ilə addımlayır. Ulu Öndərimiz Azərbaycan xalqının müstəqillik mübarizəsində misilsiz xidmətlər göstərib. Sağlığında canlı əfsanəyə çevrilib, bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanıb. Dünyamiqyaslı siyasətçi Heydər Əliyev xalqımızın və dövlətimizin taleyüklü problemlərini həll edən dövlət xadimi olmaqla yanaşı, həm də Azərbaycanın 54 illik bir tarixi dövrünü yaradan və yaşadan şəxsiyyətdir.**

Bəli, 14 iyul 1969-cu il Azərbaycanın özünə qayıdışı, dirçəlişi və inkişaf yolunun başlanğıcı kimi tarixə düşmüşdür. Məhz həmin tarixdən etibarən Heydər Əliyev Azərbaycana yalnız rəhbərlik etməyib, O, eyni zamanda, qüdrətli dövlət xadimi, görkəmli siyasətçi kimi Azərbaycanı nəinki keçmiş SSRİ-də, həm də bütün dünyada tanıdıb, milli varlığımızın qorunub saxlanılmasında misilsiz xidmətlər göstərib. Həmin illərdə əldə olunan uğurlar və Azərbaycanın qazandığı şöhrət tariximizə qızıl hərflərlə yazılıb. Ona görə də 14 iyul xalqımızın taleyində milli dövlətçiliyimizin bərqərar olmasının başlanğıcı, azərbaycançılığın, tarix səhifəsində milli dövlətçiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.



***Nazim İsmayılov,***
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü***

Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz təkrarsız yerini tutmuşdur.

1960-cı illərdə ölkəmizin imkanlarının yetərincə olmasına baxmayaraq, tənəzzül, başqa respublikalardan asılılıq hökm sürürdü. Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son yarım əsrdən artıq bir dövrünü əhatə edən zaman kəsiyi müdrik dövlət xadimi, dərin zəkaya, fitri istedada, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin - Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Reallıq bundadır ki, həmin illərdə Azərbaycanın iqtisadi vəziyyəti acınacaqlı durumda olmaqla ötən əsrin 60-cı illərində ölkəmiz keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin inkişafında acınacaqlı vəziyyət yaranmışdı. Respublikanın tələblərinə cavab verməyən sosial vəziyyət əhalinin güzəranının getdikcə pisləşməsinə səbəb olurdu. Ölkəmizin imkanlarının yetərincə olmasına baxmayaraq bizim təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilirdi. 1950-ci illərdən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçmişdi, respublikamızda işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş dalınca Rusiyanın müxtəlif şəhərlərinə üz tuturdu.

Respublikada qeyri-müəyyən bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, dilimizin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməməsi ciddi problemlər yaradırdı.

Azərbaycan KP MK-nın 1969-cu il 14 iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməklə xalqımızın tarixində və taleyində əhəmiyyətli dönüşə inkişafa nail olundu.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində indiyədək SSRİ- nin aqrar ölkəsi kimi tanınan Azərbaycan inkişaf etmiş, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrildi.

Ümummilli lider öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və uğurlu gələcəyə aparan yolları müəyyən etmişdir. Həmin səbəbdəndir ki, Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü ulu öndərin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur.

SSRİ-nin mövcud olduğu bir şəraitdə ayrı-ayrı respublikaların milli məsələdən danışması və bu istiqamətdə hansısa bir fəaliyyət aparması sadəcə, qeyri-mümkün idi. Amma Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ümummilli idealların yenidən dirçəldilməsi və inkişaf etdirilməsi prosesləri vüsət almağa başladı. Bu tarix ölkəmizin həm də müstəqil dövlətçiliyə doğru ilk böyük dönüşünün başlanğıcı olmuşdur. Onun bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Heydər Əliyev həmin dövrdə bütün ideoloji-siyasi manеələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürdü, ictimai şüurdakı qorxunu aradan götürdü, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandırdı.

Əlbəttə, müstəqilliyi əldə etmək üçün möhkəm təməlin, iqtisadi inkişafın olması əsas şərt idi. Ulu Öndər xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratdı. O öz xidmətləri ilə hər bir azərbaycanlıya Vətən üçün, Azərbaycan üçün qurub-yaratmaq, yorulmadan xidmət etmək fəlsəfəsini aşılaya bildi. Azərbaycanı inkişaf etmiş respublikaya çevirdi, bugünkü müstəqilliyimizin təməlini hazırladı, gələcək nəsillər üçün əvəzsiz, qiymətli miras qoydu.

1969-1982-ci illərdə Heydər Əliyev mərkəzdəki nüfuzundan istifadə edərək Sov.İKP MK və SSR Nazirlər Soveti tərəfindən respublikanın xalq təsərrüfatının inkişafını təmin edəcək beş mühüm qərar qəbul edilməsinə nail olunmuşdur.

Təbii ki, bu qərarların yerinə yetirilməsini təmin etmək üçün SSR-nin mərkəzi büdcəsindən Azərbaycana xeyli vəsait ayrılmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində 1969-1982-ci illərdə sənaye məhsulları istehsalının həcmi 2,7 artmış və sənaye istehsalının 13 il ərzində ümumi həcmi müharibədən sonrakı bütün dövrün (1970-ci ilə qədər) istehsalını 2 dəfə üstələmişdir. 1969-1982-ci illərdə ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyəti olan 230-dan çox yeni sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, mövcud müəssisələr yenidən qurulmuş, gücləndirilmiş və istismara verilmişdir.

1982-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu illə müqayisədə 2,5 dəfə, inqilabdan əvvəlki dövrə nisbətən isə 9 dəfə artmışdır. Həmin dövrdə respublikada taxıl istehsalının həcmi 573,9 min tondan 1211,3 min tona, pambıq tədarükü 299,4 min tondan 1015,3 min tona, üzüm istehsalı 272,0 min tondan 1815,6 min tona yüksəlmişdir. Dənli bitkilərin məhsuldarlığı 1970-ci illərdə hər hektardan 11,6 sentnerdən 1980-ci ildə 23,2 sentnerə çatmışdır.

1969-1982-ci illərdə iqtisadiyyatın inkişafına 7,2 milyard manatlıq və ya 1920-1968-ci illər ərzində edilmiş kapital qoyuluşundan 4,5 dəfə çox vəsait sərf olunmuşdur. Təkcə 1982-ci ildə kapital qoyuluşunun həcmi 1950-ci ildəkindən 29,5 dəfə, 1956-cı ildəkindən 12,6 dəfə, 1968-ci ildəkindən isə 6,7 dəfə çox idi. Həmin illərdə respublika əhalisinin mənzil şəraiti əsaslı dərəcədə yaxşılaşaraq ümumi sahəsi 19,4 milyon m2 mənzillər tikilərək vətəndaşların istifadəsinə verilmişdir. Bu dövrdə 483,4 min şagird yerlik ümumtəhsil məktəbləri, 68,1 min yerlik məktəbəqədər uşaq müəssisələri, 13,5 min çarpayılıq xəstəxana, növbədə 13,7 min nəfər qəbul edən ambulatoriya-poliklinika müəssisələri inşa edilmişdir.

Hazırda Bakıya, Azərbaycanın şəhər və rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın əsasını təşkil edən fabriklər, zavodlar, iri istehsal kompleksləri, su anbarları, dəryaçılar, yaşıllıq zonaları, neçə-neçə yollar, körpülər Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük şəxsiyyətin bütün varlığına hopmuş vətən sevgisinin nəticəsidir.

Heydər Əliyevin başçılığı ilə 1969-1982-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

*Ardı Səh. 12*








Əvvəli Səh. 11

# Heydər Əliyev və Azərbaycanın tarixi inkişafının başlanğıc nöqtəsi - 14 iyul 1969-cu il

Minlərlə azərbaycanlı gənc Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına göndərilmişdir. Bütün bunlar dahi Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin nəticələri idi. Ulu öndərimiz bu barədə danışarkən demişdir: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1969-1982-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

O dövrdə görülən işlərin bəhrəsini biz indi daha aydın dərk edirik. 1969-1982-ci illər Azərbaycanda həm də elm və təhsilin inkişaf dövrü kimi xatırlanır.

Həmin illərdə Ulu Öndərimizin rəhbərliyi altında təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləşdirilməsi, respublika hüdudlarından kənarda yüksək-ixtisaslı mütəxəssislərin yetişdirilməsi müasir müstəqil Azərbaycan üçün zəruri intellektual potensial yaratmışdır. Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması isə Ulu Öndərin uzaqgörənliyindən, dahiliyindən xəbər verirdi. Heydər Əliyev qarşıdakı böyük dəyişikliklərin qaçılmaz olduğunu bilirdi. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin 54 ən qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi də müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan idi.







Beləliklə, Azərbaycan qısa müddətdə öz taleyinin sahibi oldu, başqa müttəfiq respublikaların 50 ilə keçdiyi yolu cəmi 13 ilə qət etdi.

Sonradan Kremldə fəaliyyət göstərdiyi 1982-1987-ci illərdə Siyasi Büronun üzvü olmaqla SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə yüksələndə də qəlbi daim xalqımızla birgə döyünmüşdür. O dövrdə ölkənin ən mühüm sahələrinə rəhbərlik, məhz Ulu Öndərimizə etibar edilmişdir. Həmin dövrdə də Azərbaycanın inkişafını, əlaqələrinin möhkəmləndirilməsini, ərazi bütövlüyünün təmin olunmasını, milli kadrların yetişdirilməsini daim diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün maksimum səy göstərirdi. Bu məqsədlə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq kimi tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər belə bir addım, məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri - bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Daha bir önəmli amil budur ki, ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycanın gələcək taleyində əvəzsiz rolu olan İlham Əliyev kimi şəxsiyyəti və müdrik siyasi lideri yetişdirməsidir.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdi. Məhz son 20 ilin uğurlarının ümumiləşdirilmiş ifadəsi olaraq qeyd etməliyik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl daxili və xarici siyasət sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, Azərbaycan dünya ölkələri sırasında tutduğu layiqli mövqeyini möhkəmləndirir. Azərbaycanın uğurlarının zirvəsində 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz dayanır.

Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Ordumuzun gücü, qüdrəti, xalqımızın dəmir yumruq kimi birliyi, həmrəyliyi sayəsində 30 ilin işğalına son qoyulmuşdur. Azad Qarabağımızda, azad Şuşada genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Bütün bunlar Heydər Əliyev siyasətinin təntənəsidir.

Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bizləri qarşıda daha möhtəşəm qələbələr, zəfərlər gözləyir.



# Paşinyan radikalların hədəfində

## Ermənistan müxalifəti eyni məsələləri bu gün baş veribmiş kimi yenidən gündəmə gətirməklə növbəti dəfə məsuliyyətdən yaxa qurtarmağa çalışır

Ermənistanda siyasi mənzərə kəskinləşir. Müxalif qüvvələr isə xalqın düşdüyü vəziyyətə görə günahı təbii olaraq baş nazir Nikol Paşinyanda görürlər. Belə ki, 2018-ci ildə "məxməri inqilab" kimi tanınan geniş etirazlardan sonra keçmiş jurnalist və fəal Nikol Paşinyanın hakimiyyətə gəlişi siyasi və iqtisadi islahatlara ümid yaratsa da, işğalçı ölkəni idarə etmək bir o qədər də asan olmadı. Müxalifət partiyaları Paşinyan hökumətinin onlarla əlaqə qurmaması nəticəsində ölkədə problemlərin, o cümlədən işsizlik və yoxsulluq səviyyəsinin daha da yüksəldiyini, idarəçilikdə şəffaflığın olmadığını bildirirlər. Müxalifət Nikol Paşinyanı Qarabağ münaqişəsinin həllində və bunun fonunda düzgün xarici siyasət yürütməməkdə, beynəlxalq müstəvidə maraqlı tərəflərlə səmərəli danışıqlar aparmamaqda, ölkə üçün əlverişli şərtləri təmin etməməkdə günahlandırır.



Müxalifət iddia edir ki, Paşinyanın 2020-ci ildə altıhəftəlik müharibəyə son qoyaraq üçtərəfli Bəyanat imzalamaq qərarı ölkənin milli təhlükəsizliyinə və ərazi bütövlüyünə xələl gətirən kapitulyasiya idi. Paşinyanın strateji uzaqgörənliyinin olmamasının Ermənistanın "ərazi itkiləri" ilə üzləşməsinə səbəb olduğunu, onilliklər ərzində nəzarətində olan ərazilərin Azərbaycana "verildiyini" iddia edən müxalifət baş naziri xəyanətkar adlandırır. Həmçinin üçtərəfli Bəyanatın Qarabağdakı etnik erməni əhalisinin hüquqlarını və təhlükəsizlik problemlərini təmin etmədiyini bildirir. Müxalifətə qoşulan radikallar da Paşinyan administrasiyasını korrupsiyaya qarşı mübarizədə, idarəetmədə, o cümlədən məhkəmə və hüquq-mühafizə orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması üçün heç bir iş görmədiyinə və hakimiyyətdən sui-istifadə hallarına görə tənqid edirlər. Müxalifətə, eyni zamanda radikallara görə, Paşinyan hökuməti regional çağırışların öhdəsindən gələ bilmir və Ermənistanın mənafeyini qorumur. Onlar hesab edirlər ki, daha güclü diplomatik səylər və strateji addımlarla Ermənistanın maraqlarının müdafiəsini təmin etmək olar. Lakin qeyd etmək lazımdır ki, Ermənistanın üzləşdiyi vəziyyət, siyasi iğtişaşlar, iqtisadi gerilik və regional amillər yalnız Paşinyan hakimiyyətinə deyil, ondan əvvəlki rəhbərlərə də birbaşa aiddir, sadəcə Paşinyan onların siyasətini "uğurla" davam etdirir.

İkinci Qarabağ müharibəsində düşmənin kapitulyasiyası, Ağdam, Kəlbəcər və Laçın rayonlarını hərbi əməliyyatlarsız geri qaytarması Ermənistanın daxilində siyasi və sosial əks-səda doğurdu və bu, müzakirələr mövzusu olaraq davam edir. Buna görə müxalifət Paşinyanın qərar qəbul etmək və danışıqlar aparmaq bacarığının Ermənistanın milli maraqlarını qorumaq üçün yetərli olmadığını bəyan edir. Radikallar iddia edirlər ki, Paşinyanın qarşıdurma yaratması və bölücü ritorikası mövcud fikir ayrılıqlarını daha da gücləndirib və vacib islahatların aparılmasına mane olur. Keçmiş prezidentlər Paşinyanı hakimiyyətdə əsas kadrları dəyişdirməklə demokratik prinsiplərə məhəl qoymamaqda ittiham edir, bunun ölkə daxilində sabitliyin pozulmasına, demokratik dəyərlərin aşınmasına səbəb olduğunu qeyd edirlər. 2008-2018-ci illərdə Ermənistanın üçüncü prezidenti olmuş Serjik Sarkisyan Paşinyanı səhv idarəçilikdə tənqid edir, onun hökumətini korrupsiya ilə mübarizə, vergi islahatları və biznesin inkişafı kimi struktur problemləri effektiv şəkildə həll etməməkdə günahlandırır, baş nazirin siyasi təcrübəsizliyini, institusional normalara məhəl qoymamasını vurğulayırlar. O iddia edir ki, Nikol yalançıdır. Bu günlərdə Paşinyanın müharibənin hallarının öyrənilməsi üzrə İstintaq Komissiyasının iclasında səsləndirdiyi bəyanatlar isə S.Sarkisyanı özündən çıxarıb. "Panorama.am" saytı xəbər verir ki, sabiq prezident N.Paşinyanı hədəf alan fikirlər səsləndirib. "Psixoloqlar deyirlər ki, yalançılar sonda öz yalanlarına inanmağa başladıqları nöqtəyə çatırlar. Ancaq bir ümidverici hal var - bunun yalanın son mərhələsi olduğunu da söyləyirlər. Ümid edirəm ki, bu son mərhələdəyik", - deyə sabiq Ermənistan prezidenti N.Paşinyanı hədəf alaraq onu durmadan yalan danışmaqda ittiham edib.

Bildirək ki, Paşinyan müharibə hallarının öyrənilməsi üzrə İstintaq Komissiyasının iclasında S.Sarkisyan hakimiyyətinə qarşı kəskin fikirlər səsləndirmiş, onu bir sıra cinayət əməllərinə yol verməkdə ittiham etmişdi. Həmçinin Ermənistanın üzləşdiyi problemlərdə və ölkənin hazırkı vəziyyətə düşməsində də məhz Sarkisyan və Koçaryanın məsuliyyət daşıdıqlarını vurğulamışdır. Çünki Koçaryanın prezident olduğu dövrdə Ermənistan sistemli problemlər və köklü korrupsiya ilə üzləşib və əvvəlki administrasiyanın bu məsələləri həll etməməsi ölkəyə qalıcı təsir göstərib. Baş nazir ona miras qalmış problemlərin birbaşa Koçaryan administrasiyasının siyasətinin və idarəçiliyinin nəticəsi olduğunu bildirir. Paşinyan əvvəlki, o cümlədən Sarkisyan administrasiyasını korrupsiya hallarını formalaşdırmaqda günahlandırır və iddia edir ki, onun hökumətinin korrupsiya ilə mübarizə səyləri əvvəlki administrasiyaların yaratdığı dərin köklü problemlərin həlli üçün zəruri addımlardır.

***Sevinc Azadi***

# "Erməni kilsəsinin mənfur əməlləri davam edir"

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

**Erməni kilsəsi əsrlər boyu erməni terrorçuları, təcavüzkarları ilə birlikdə olub və bu gün də kilsə xadimlərinin qatillərə, qaniçənlərə qətlər, insan qırğınları törədilməsi üçün xeyir-dua verməsi təəccüb doğurmamalıdır. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**





Komitə sədri xatırladıb ki, Qarabağda törədilən ağır cinayətlərdə erməni kilsəsinin böyük rol oynadığı hər birimizə yaxşı məlumdur və erməni kilsəsi fəaliyyətdə olduğu bütün dövrlərdə insanları, erməni əhalisini azərbaycanlılara, türklərə qarşı amansız, qəddar ruhda tərbiyə etmiş, terror əməlləri ilə silahlandırmışdır.

"Erməni din xadimləri türkün, azərbaycanlıların qanının axıdılmasından, şəhər və kəndlərimizin viran qoyulmasından ləzzət aldıqlarını dəfələrlə açıq-aydın ifadə etmişlər. Bu gün Moskvada Erməni Arostol Kilsəsində yeni "ARBAT" adlı erməni batalyonunun yaradılması və onun Donbasda döyüşlərdə iştirak etməsi üçün xeyir-dua alması erməni kilsəsinin mənfur, çirkin, dinə, Tanrıya zidd əməllərini, davam etdirdiyini göstərir. Bu, erməni kilsəsinin Ukrayna ərazisində müharibəni dəstəkləməsinə sübutdur. Kilsənin dinc Ukrayna əhalisini qırmağa, şəhər və kəndləri xarabazarlığa çevirməyə yollanan terrorçuların təşkilatlanmasında, səfərbər olunmasında fəal iştirak etməsi həm dinə, həm də bəşəri dəyərlərə ziddir.

Faktlar sübut edir ki, erməni döyüşçüləri dinc Ukrayna əhalisinə qarşı soyqırımlarda fəal iştirak edir və bu məqsədlə kilsədən dəstək alır. Sözsüz ki, bu dəstək pulla ödənilir və erməni döyüşçülər aldıqları vəsaitlər hesabına hər bir cinayətə, terrora hazırdırlar. Daim belə olub və bu gün də belədir. Çox təəssüfləndirici haldır ki, beynəlxalq təşkilatlar, Ermənistana dəstək verən ölkələr ermənilərin bu anti-bəşəri əməllərini görmür, təcavüzkar ölkə haqqında lazımı ölçü götürülmür. Özünü yazıq, başıaşağı, məzlum kimi göstərən erməni təcavüzkarlarının, din xadimlərinin əməllərinə lazımı münasibət bildirib qiymət verilmir.

Azərbaycanın dövlət rəhbəri cənab İlham Əliyev Ermənistanın mənfur niyyətlərini, təcavüzkarlıq əməllərini dəfələrlə beynəlxalq tribunalardan səsləndirmiş, qatilləri öz çirkin siyasətlərindən əl çəkməyə səsləmişdir. Təəssüflər olsun ki, Fransa başda olmaqla, Emmanuel Makron kimi şovinist siyasətçilər bu çağırışlardan nəticə çıxarmaq əvəzinə əksinə ermənilərə dəstək verirlər, onları dünyaya əzilən, incidilən xalq kimi təqdim edirlər. Ancaq pərdə yırtıldıqca, faktlar aşkarlandıqca Ermənistanın xəyanətkar, cinayətkar bir dövlət olduğu üzə çıxır və Ukraynaya erməni batalyonunun göndərilməsi bunun aydın nümayişidir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Cəmil Həsənli özünü agentura şəbəkəsinə təslim edib



Müasir dövrün yeni texnologiyaları və dəyişiklikəri insanların düşüncə və təfəkkürlərinin də dəyişməsinə təsir edir. 50 il öncə yaşamış insanla bu günki insan arasında cəmiyyətlərdə baş verən ictimai siyasi hadisələrin dərk edilməsi baxımından mühüm fərq mövcuddur. Tüxnalogiyaların sürətlə inkişafı dünya ölkələrini bir-birinə daha da yaxınlaşdırıb, həm də balacalaşdırıb. İnsanlarda dilindən, dinindən asılı olmayaraq bir -birinə doğmalaşıblar, bir-birini anlamğa başlayıblar. Bunu üzə çıxan neqativ halları nəzərə alaasaq ümumilidə müsbət dəyərləndirmək olar. Lakin etiraf etmək və əminliklə qeyd etmək lazımdır ki, cəmiyyətlərə elə insanlar varki, internetin hansı imkanlara və xüsuiyyətlərə malik olduğunu hələ də dərk etmir. Sadəcə social şəbəkələrə daxil olub, söyüş və təhqir yazmağa bacarırı. Təbii ki, söyüş ritorikasından istifadə olunması qəbuledilməzdir. Daha doğrusu hüquqi məsuliyyət yaratmaqla yanaşı, qınaq obyekti yaradır.

### Söyüşü sosial şəbəkələrə dağıdıcı müxalifət gətirib

Araşdırmalara və baş verənlərə əsaslanaraq demək olar ki, bu gün sosial şəbəkələrdə söyüş və təhqir vasitələrindən daha çox müxalif qismi istifadə edir. Fikir versəniz görəmək olar ki, indiki dağıdıcı müxalifət ötən əsrin 90-cı illərində hansı təfəkkürdə idisə, bu gün də eyni düşüncədədir. Dəyişən yalnız onların əyin başlarıdır. Yəni kostuyumları və parıldayan ayaqqabılarından başqa həyatlarında heç nə dəyişməyib. Fikir verin, bu şəxslər mətbuata açıqlama verərkən, ancaq 90-cı illərdən sitatlar gətirir, o dövrdə üzləşdikləri hadisələrdən misallar göstərirlər. Bir dəfə də olsun Ə. Kərimlidən, C.Həsənlidən, A.Hacılıdan, T.Yaqubludan və digərlərindən yeni fikir, yeni ideya və təklif eşidilməyib. Deyilənə görə, sözügedən şəxslər, hələ də internetdən istifadə etməkdə çətinlik çəkirlər. Statuslarını kimlərsə yazır, paylaşmalarını kimlərsə onalar üçün edirlər. Sosial şəbəklərdə nacaq aksiyalardan danışır, insanları küçə yürüşlərinə, mitinqlərə çağırılar. Bununla xaos və anarxiyanın hökm sürdüyü o dövrü yenidən yaşamağa və polislərlə qarşıdurmalar yaratmaqla hələ də movcud olduqlarını göstərməyə çalışırlar. Belələri dayaz düşüncə sahibdirlər. Başqa ad vermək təbii ki, ədaələtsiz olardı. "Milli Şura"nın sədri Cəmil Həsənli özünü bir neçə ölkənin professoru adlandırır, Hələ utanıb çəkinmədən kitablar yazıdığınıda dilə gətirir. Sosial şəbəkələrdə statuslar paylaşaraq tarxin müəyyən səhifləri ilə bağlı mülhaizələrini qeyd edir. Necə ola bilər ki, texnaloji bilgilərə malik olmayan 70 yaşlı bir qoca məxluq sosial şəbəkələrdə tarixlə bağlı statuslar paylaşır?

### C.Həsənli "siyasətçi - bloger" qismində çıxış edir

Təəccüblü deyilmi sosial şəbəkələrin xüsisuiyyətlərindən xəbərsiz olan C.Həsənli "siyasətçi - bloger" qismində video paylaşmalar edərək Azərbaycandakı ictimai, siyasi proselərlə bağlı analizlərini qeyd edir, fərziyyələrini və ehtimallarını irəli sürürür? Aydın məslədir ki, naşı və bilgisiz C.Həsənli adından sosial şəbəkələrdə Azərbaycanla bağlı şər və böhtan xarakterli siyasi və iqtisadi analizləri müəyyən şəxslər yazırlar. Hansıki, o şəxslər Avropanın və ABŞ- xüsusi xidmət orqanlarının ixtisalaşmış agentləridir. Bu faktlar onu təsdiq edir ki, C.Həsənli bütün mənalarda özünü Avropanın və ABŞ-ın qaranlıq dairələrinə təslim edib. Onun təslimçiliyini satqınlıq və xəyanət kimi qiymətləndirmək olar. Diqqətçəkən məqam ondan ibarətdir ki, C.Həsnli kimin qucağında nəyə görə oturduğunu başa düşür. Lakin cəsarət edib, etiraz edı bilmir. Çünki, Cəmil Həsənlinin ABŞ-ın Azərbaycandakı keçmiş səfirləri Riçard Kozlariçlə və Robert Sekuta ilə gizli görüşlərində üzərinə öhdəliklər götürüb. Digər tərəfdən onu ABŞ-a və İngiltərəyə məcburiyyətdən bağlayan məqamlar var. Yəni övladları sözügedən ölklərin vətəndaşları ilə ailə qurararaq yaşayırlar. Bəzən həftələrlə gah ABŞ-da, gah da İngiltərə də yaşaması da ovladlarından ayrı qalmaq istəməməsi ilə bağlıdır.

### "Milli Şura" qapılarını Cəmil Həsənlinin üzünə bağlayır

C.Həsənlinin qeyr-ciddi davranışı və fəaliyyətini daha çox Avropanın agentura şəbəkəsinin istəyinə uyğun qurması Əli Kərimlinin, Gültəkin Hacıbəylinin, Namizəd Səfərovun və digər "Milli Şura" üzvlərinin ürəyincə olsada sıravilər tərəfindən satqınıqlıq kimi qiymətləndirilir.Hətta "Milli Şura"nın çoxluğu C.Həsnlidən sədrlikdən istefa verməsini tələb edirlər. Təzyiqlər davamlı xarakter daşıdığından C.Həsənli "Milli Şura" sədrliyindən getmək məcburiyyətində qalıb. Bu halda da özünü o yerə qoymayıb, istefa addımını qurumda gəncləşmə niyyəti ilə atmğa hazırlaşdığını bildirib: "Mən "Milli Şura" sədrliyindən getməklə bağlı təklif vermişəm. Milli Şura gəncləşməlidir, yeniləşməlidir Mən artıq 8-ci ildir bu təşkilatın rəhbərliyindəyəm. Nəyəsə insanları çağırırsansa, əvvəl özün o prosesin önündə olmalısan. Londonda, Parisdə, Berlində, ya da Vaşinqtonda oturub insanları etiraza çağırmağın bir az əlavə mənəvi yükü var. Yaşın elə bir həddidir ki, hər yerdən, o cümlədən bu dünyadan da gərək vaxtında gedəsən". Beləliklə görünən ondan ibarətdir ki, yaxın vaxtlarda C.Hənəli siyasətdən gedəcək. Bu həm də onu deməyə əsas verir ki, C.Həsnli həmişəlik xaricdəki əcnəbi doğmalarının yanında qalacaq.



Elçin Bayramlı

# Müəllimlərin aramsız imtahanı: məqsəd və nəticə nədir?

Bu günlərdə elm və təhsil nazirinin verdiyi açıqlamalar ictimaiyyətdə birmənalı qarşılanmayıb. Müəllimlərin sertifikasiya nəticələrini tənqid edən nazir bildirib ki, yüksək nəticə göstərən müəllimlərin əməkhaqqı 1000 manatdan çox olacaq. Əvvəl ikinci məsələdən başlayaq. Müəllimlərə 1000 manat əməkhaqqı vermək başqa ölkələrlə müqayisədə çox zəif göstəricidir. Bunu fəxrlə demək ki, uzun illərdən sonra bəzi müəllimlərin maaşı ayda 1000 manatı keçəcək- bu, qəribədir. Çünki bu məsələyə qiymət-maaş balansı ilə baxanda görürük ki, 1000 manat minimum maaş olmalıdır.

Müəllimlərin sertifikasiyadan keçirilməsinə gəldikdə, bu, bir tərəfdən yaxşıdır. Çünki burada rüşvətlə işə düzəlmiş savadsız müəllimlər aşkar olunacaq. Yüksək bal toplayanları isə seçib onlara metodist funksiyası verərək, müəllimləri əlavə işlə yükləyəcəklər. Yəni müəllim, ən azı, 2-3 nəfərin işini gördüyü təqdirdə o maaşı ala biləcək ki, bu da fiziki cəhətdən onlar üçün ağırdır. İndiki dövrdə müəllimlər gündə 2-3 saat fərdi hazırlığa vaxt sərf etməklə ondan çox pul qazanırlar.

Bu hesabla yaxşı müəllimləri dövlət məktəblərində saxlamaq mümkün olmayacaq. Onlar ya özəl məktəblərə üz tutacaqlar, ya hazırlıq kurslarına işə keçəcəklər, ya da sərbəst repetitor fəaliyyətinə üstünlük verəcəklər. Nazirin dediyi 1000 manat isə müəllimlərin 1/3-nə, yəni 30%-nə aid olacaq. Digərləri isə yenə aşağı maaş alacaq. Bu isə işin keyfiyyətinə təsir edəcək. Çünki heç bir insan bu qədər yüklənərək, az maaşa effektiv və təsirli iş görə bilməz.

Görünən odur ki, son dövrlərdə təhsildə aparılan islahatlar heç bir nəticə və fayda vermir. Müxtəlif eksperimentlər edirlər, hamısı da mənfi nəticə verir. Bu, belə olmur. Birincisi, sən diplom verdiyin müəllimlərə inanmayıb tez-tez sınaqlardan keçirirsən, camaatı bezdirirsən. Bunu bir dəfə et qurtar də. Diplom vermisənsə, arxasında durmalısan. Deməli, sənin öz universitetlərinə inamın yoxdur, onların nə olduğunu, rüşvətlə məktəblərə düzələnlərin çox olduğunu bilirsən.

Nəticələrə baxanda hər şey aydın görünür. Məsələn ibtidai sinif müəllimlərinin cəmi 10%-i 50 baldan yuxarı yığaraq yüksək nəticə göstərə bilib, 35 faizi isə 0-30 bal arası toplayıb. Bunlar aşağı göstəricilərdir və bu o deməkdir ki, universitetlərin yetişdirdiyi kadrların yarıdan çoxu orta səviyyəni keçə bilmir. İkinci tərəfdən də bunları seçmək üçün hər il imtahan keçirməyə ehtiyac yoxdur. Bu şəxslər işə qəbul olunanda baxılmalı, seçilməli və onun savadı yoxlanılmalıdır.

Üstəlik, məlum olub ki, yüksək bal toplayan müəlouimlərin bir çoxu xüsusi kursa gedib imtahanda yüksək bal yığıb. Məsələ bununl ada bitmir. Müəllimin təkcə savadı kifayət etmir, onun şəxsi psioxologiyası pedaqoji metodikası, dərsi mənimsətmə bacarığı da vacibdir. Bunu necə imtahan edəcəksən?

Müəllimləri kurikulum sistemi ilə hədsiz yükləyiblər. Onların əsas vaxtı jurnalları doldurmağa, nələrisə qeydiyyata salmağa gedir. Dərsin yarısı da sərf olunur. Müəllimlər artıq fiziki və psixoloji olaraq yorulub, üstəlik, tez-tez keçirilən sertifikasiya imtahanları filan onları lap əldən salır.

Bütün bunların nəticəsində təhsil bərbad vəziyyətə düşüb. Kurrikulum, Bolonya sistemi və s... bu qədər eksperiment olar?! 20 ildir bu proses gedir və hər dəfə yeni bir sistem tətbiq edib "yaxşı olacaq" deyə-deyə vəziyyəti daha da pisləşdirirlər. Artıq heç kimdə inam yoxdur ki, nə isə düzələr.

Ali məktəblərə qəbul imtahanlarındakı nəticələr də biabıçırlıqdır. Universitetlər 150-200 balla, yəni 1, 2 qiymətlə tələbə qəbul edir. Belə olan halda hansı təhsildən söhbət gedir? Uzun illər apardıqları səhv siyasətlə təhsili məhv ediblər, ümid qalıb ancaq repetitorlara. Əhalinin yüksək gəlirli təbəqəsi uşaqlarını özəl məktəblərdə oxudur, hazırlıq kurslarında hazırlayır. Bu, elə əhalinin təhsilə verdiyi qiymətdir.

Əhalinin təhsilə yanaşması belədir: valideynlərin pulu gücünə repetitor və kurslarda uşaqları hazırlayaraq universitetə qəbul etdirmək. Ona görə də, təhsildə nəyisə dəyişib pisə aparmaqdansa, ən yaxşısı, heç nə etməyin.

# "2026-cı ilədək Qarabağa azı 66 min sakinin geri qayıdışı nəzərdə tutulur"

**"2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə azı 66 min sakinin geri qayıdışı nəzərdə tutulur".SİA xəbər verir ki, bunu Ağdam şəhərindəki Konfrans Mərkəzində keçirilən "Ağdamın dirçəlişi" adlı tədbirdə Qarabağ İqtisadi Rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.**



Onun sözlərinə görə, şübhəsiz ki, mədəni və dini irsin qorunub saxlanması bizim digər prioritetimizdir. Hazırda Ağdamdakı Cümə və Qiyaslı məscidləri bərpa olunur, Suqovuşan və Hadrut qəsəbələrində isə yeni məscidlərin tikintisi üzrə layihələndirmə işləri aparılır. Pənahəli xanın sarayı - İmarətdə və Şahbulaq qalasında yaxın vaxtlarda bərpa işlərinə başlanılacaq. İmarətdə yerləşən Azərbaycanın görkəmli şairəsi və xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi özünün ilkin görkəmində artıq bərpa olunub.

Xüsusi nümayəndə qeyd edib ki, səhiyyə infrastrukturu üzrə Ağdam və Füzuli şəhərlərində 2 mərkəzi xəstəxananin tikintisinə yaxın zamanlarda başlanılacaq. İstər Ağdamda, istərsə də Füzulidə Zəfər və açıq hava altında İşğal muzeyləri olacaq. Həmçinin hazırda Füzuli və Ağdam şəhərlərinin mərkəzi parkları və Ağdam Meşə Parkının tikinti layihələri hazırlanma mərhələsindədir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə bütün bərpa və reabilitasiya prosesini 3 əsas mərhələyə bölmək olar. 1-ci mərhələdə, 2026-cı ilədək Qarabağ iqtisadi rayonu üzrə 2 şəhər mərkəzinin və 32 kəndin tikilməsi, 3 məntəqənin turizmyönlü inkişaf etdirilməsi, torpaq islahatı ilə bağlı təkliflərin hazırlanması və ən azı 66 min sakinimizin öz dədə-baba torpaqlarına geri qayıdışının təmin edilməsi qarşımızdakı əsas hədəflərdir", - deyə o əlavə edib.

# Laçına növbəti köç: 85 nəfərin həsrətinə son

*Daha 23 ailə 30 ildən sonra doğma yurduna qayıtdı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti çərçivəsində hazırlanıb*












**İyulun 13-də daha bir neçə ailə Laçın şəhərinə yola salınıb. Bu dəfə 85 nəfərdən ibarət 23 ailə doğma yurduna geri dönür. Köç Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola düşüb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.**

Laçın şəhərinə ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər. Bununla da Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

## Laçında həyat necə keçir?

Ordumuzun düşmən üzərində qazandığı şanlı qələbə nəticəsində işğaldan azad edilmiş digər Azərbaycan torpaqları kimi, Laçın rayonuna da 30 il əvvəlki qaynar həyat qayıdıb. Laçında inanılmaz sürətlə gedən abadlıq, yenidənqurma, yaşıllaşdırma işləri rayonun hər küçəsində, hər döngəsində hiss olunur. Rayonun səmasında yenə şahinlər süzür, Həkəri çayında yenə sazan, qızılbalıq, alabalıq üzür.

Prezident İlham Əliyev mayın 28-də Laçına qayıdan əhali ilə görüşündə burada aparılan quruculuq işlərindən danışarkən demişdi ki, biz doğma torpaqlarımızı işğaldan azad edəndən sonra Qarabağı, Şərqi Zəngəzuru cənnətə çevirəcəyimizə dair söz vermişdik, əgər cənnəti təsvir etmək olarsa, deməli bu Laçındır. Mənzərəli təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey böyük zövqlə yaradılıb ki, insanlar burada rahat yaşasınlar, Laçın şəhərinin müasir görkəmi Azərbaycanın əldə etdiyi nailiyyətlər səviyyəsindədir.

Qeyd edək ki, şəhərin Baş Planı layihəsində şəhər qəsəbəsinin tarixən mövcud olan, təbii yaşıllıqlarla əhatə olunmuş ərazisində 258 hektara yaxın sahəsi olan fərdi yaşayış evlərinə üstünlük verilir. Eyni zamanda, çoxfunksiyalı zonalarda və digər yaşayış massivlərində çoxmənzilli binaların tikilməsi təklif olunur.

Şəhərdə "İşğal" və "Qələbə" muzeylərinin, məktəbəqədər və orta təhsil müəssisələrinin, peşə liseyinin, habelə mədəniyyət və turizm obyektlərinin yerləşəcəyi Xatirə Parkı yaradılır. Planlaşdırmada tətbiq edilən "15 dəqiqəlik şəhər" prinsipi yaşayış məhəllələrinin gündəlik tələbat obyektlərinə yaxınlığını təmin etməklə yanaşı, aşağı sürətli yol infrastrukturunun təşkilini, sakinlərin və qonaqların şəhər daxilində rahat gediş-gəlişini təmin edəcək.

İndi Laçının işğalda ikən 30 il davam edən susqunluğu pozulub, küçələrdə hənirti, evlərdə nəfəs var. İndi burada sakitlik yox, yeni həyata başlayan laçınlıların səs-küyü eşidilir. Uzun illər ayrılıqdan sonra vətənə qayıdan sakinlər evlərinin, həyətlərinin pəncərələrindən açılan mənzərələrə heyran qalırlar. Laçının küçələrində qarşılaşan yerlilər bir-birinə sarılaraq doğma torpaqlarına bir də ayaq basa bildikləri üçün bir-birini təbrik edirlər.

## Laçın sənaye şəhərinə çevriləcək

Laçında sənaye, xidmət və təhsil müəssisələrinin yaradılması, şəhər sakinlərinin məşğulluğu da diqqət mərkəzindədir. Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Yaxın gələcəkdə ekoloji və səmərəli kənd təsərrüfatının, tikintinin, yüngül və yeyinti sənayesinin, balıqçılığın, tingçiliyin və sosial xidmətlərin inkişafı nəzərdə tutulur.

Laçında yaradılan aqrosənaye parkında 46 müəssisə fəaliyyət göstərəcək. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyaların istehsalı müəssisəsi, o cümlədən balıqçılıq, qida sənayesi, yüngül sənaye, ekoloji təmiz emal, xırdabuynuzlu heyvanlar üçün elmi-praktik mərkəz yaradılır. İyun ayında keramika məmulatları istehsalı zavodu fəaliyyətə başladı.

Bundan əlavə, kinostudiya, toxuculuq və ayaqqabı fabrikinin açılması, müxtəlif sahələr üzrə qısamüddətli kursların təşkili planları da həyata keçirilir. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Artıq 200-dən çox laçınlı proqrama cəlb olunub, onlar Laçında aparılan quruculuq və abadlıq prosesində işlə təmin olunub.

Laçın şəhərində vətəndaşların istirahətinin səmərəli təşkili istiqamətində tədbirlər davam etdirilir. Şəhərin girəcəyində salınan sahil bulvarı laçınlıların və şəhərin qonaqlarının ən populyar istirahət məkanlarından birinə çevrilmək üçün nəzərdə tutulub. Artıq Həkəri çayı üzərində bənd salınıb və asma körpülü süni göl yaradılıb. Ətrafda yaşıllıqlar salınıb, kotteclər tikilib. Burada həmçinin çimərlik yaradılacaq, onun ərazisində böyüklərin və uşaqların rahat yaşaması üçün əyləncə mərkəzinin tikintisi nəzərdə tutulur.

Həm təbii yataqları, həm mədəni sərvətləri, həm də iqtisadi imkanları Laçın rayonunun bölgə iqtisadiyyatının inkişafında önəmli fiqura çevrilməsinə səbəb olacaq. Azərbaycanın ərazi baxımından ən böyük rayonlarından biri olan Laçın ölkə iqtisadiyyatına bir çox sahələrdə töhfə verə biləcək.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

14 iyul
2023-cü il

# Yay qripi TÜĞYAN EDIR:
## bəs adi qripdən nə ilə fərqlənir?



İnsanların son vaxtlar şikayət etdiyi xəstəliklərdən biri yay qripi kimi tanınan və məhz isti havalarda özünü göstərən qrip növüdür. Adi qripdən fərqli olaraq, yay qripi soyuqdəymədən yox, istivurmadan əmələ gəlir. Bu zaman Günəş şüaları altında uzun müddət qalmaqdan və ya istivurmadan qripəbənzər əlamətlər müşahidə olunur. Buna el arasında "yay qripi" və ya "gün qripi" də deyirlər. Əlamətləri qrip xəstəliyinə bənzəsə də, bir çox xüsusiyyətinə görə ondan fərqlənir.

AZƏRTAC mütəxəssislərin təhlili əsasında gün qripinin yaranma səbəbləri, isti havalarda ondan qorunmağın yolları istiqamətində araşdırma aparıb. Mövzu ilə bağlı həkim-terapevt Nərgiz Kərimova Günəş şüaları altında uzun müddət qalmaq və ya istivurma səbəbindən insanlarda qripə bənzər əlamətlərin müşahidə olunduğunu deyib: "Yay qripinə yoluxma səbəbləri fərqli olduğu üçün soyuqdəymə zamanı istifadə olunan dərmanlar müalicə üçün tətbiq edilməməlidir. Bu xəstəliyə təsir etməyəcək, əksinə digər sağlamlıq problemlərinə və yan təsirlərə gətirib çıxara bilər. Yay qripi yaranma səbəblərinə görə digər qriplərdən fərqlənir. Bu xəstəliyə, əsasən kondisionerdən istifadə və ya çimərlikdə üşümə səbəb olur. Kondisionerdən istifadə edərkən onun hansı dərəcəyə qoyulmasına mütləq fikir vermək lazımdır. Çalışmaq lazımdır ki, maksimum 22-23 dərəcədə qoyulsun. Yatarkən kondisioner havasının birbaşa vurması da orqanizmə mənfi təsir göstərir və onu zəifledir".

Həkim-terapevt Nazilə Xəlilbəyova yay qripinin simptomları haqda danışıb: "Mövsümü xəstəlik hesab edilən gün qripinin əlamətlərinə burun tutulması, halsızlıq, yorğunluq, xırıltılı nəfəsalma, əzələ ağrıları daxildir. Çox vaxt qrip əlamətlərini görən kimi antibiotiklərdən istifadə etməyə başlayırlar. Bu, heç də düzgün deyil, çünki antibiotiklər orqanizmin immunitetini aşağı salmaqla yanaşı mövcud vəziyyəti daha da ağırlaşdırır. Gün qripi ilə üzləşərkən evdən bayıra çıxmamaq, sərin otaqda olmaq, ılıq duş qəbul etmək lazımdır. Çoxlu maye istehlakı və S vitaminindən istifadə edilməsi məqsədəuyğundur".

Həkim-terapevt Ruhiyyə Yusifova Günəş allergiyası zamanı da yay qripinə bənzər əlamətlər müşahidə olunduğunu vurğulayıb: "Qripdən fərqli olaraq Günəş allergiyası zamanı dəridə müəyyən qızartılar və səpgilər də meydana gəlir. Bu kimi mövsümü xəstəliklərdən sığortalanmanın yeganə yolu isə Günəşdən və istidən qorunmaqdır. Bundan başqa bədən müqavimətinin zəifləməsi səbəblərindən biri də çimərlik və hovuzdan çıxandan sonra gigiyenik qaydalara düzgün əməl olunmamasıdır. Xəstələrə çoxlu maye qəbul etmək, burun kanalının izotonik məhlulla yumaq məsləhət görülür. Bunu ev şəraitində duzlu məhlulla da etmək olar".

Qeyd edək ki, hazırda qrip virusunun 2000-dən artıq variantı elmə məlumdur.



# "Kamenskaya" serialının aktrisası vəfat edib

Daha bir aktrisa gənc yaşında həyatla vidalaşıb. Rusiyalı aktrisa Larisa Marşalova 44 yaşında vəfat edib. Aktrisanın ölüm səbəbi açıqlanmayıb. Qeyd edək ki, Larisa 100-dən çox filmdə, o cümlədən məşhur "Kamenskaya" serialında rol alıb.

## Dəhşətli istilər Romanı "yandırır": 10 şəhərdə "qırmızı xəbərdarlıq" elan olundu!



Dəhşətli istilər Avropanın bir sıra şəhərlərini yaşanmaz hala gətirib. İqlim dəyişikliyinin fəsadları getgedə daha sərt şəkildə ortaya çıxır. Bu dəfə "qırmızı xəbərdarlıq" İtaliyada qeydə alınıb. Belə ki, anomal istilərlə əlaqədar paytaxt Roma daxil olmaqla, 10 şəhər üçün "qırmızı xəbərdarlıq" elan edilib. Bundan başqa ölkənin müxtəlif şəhərlərində insanlar arasında günvurma və istivurma halları qeydə alınıb, onlardan bəziləri xəstəxanaya yerləşdirilib. Romada istidən huşunu itirən turistlərə polisin və təcili yardımın müdaxilə etdiyi bildirilib.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Keçmiş məhkim qadın oğurluq üstündə tutuldu



Lənkəranda soyğunçuluq edən qadın saxlanılıb. DİN-in mətbuat xidmətinin Lənkəran regional qrupu bu barədə məlumat yayıb. Məlumata görə, Lənkəran rayonunun Veledi kəndində yerləşən evlərdən birindən qızıl-zinət əşyaların oğurlanması ilə bağlı polisə məlumat daxil olub.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində həmin əməli törətməkdə şübhəli bilinən Lerik rayon sakini, əvvəllər məhkum olunmuş Bağdagül Səmədova saxlanılıb.

Məlum olub ki, yaşayış evinə oğurluq məqsədilə daxil olan həmin şəxs ev sahibinin azyaşlı övladının orada olduğunu görsə də, əməlini davam etdirib və tapdığı pul, qızıl-zinət əşyalarını götürərək uzaqlaşıb.

Məlumat daxil olduqdan dərhal sonra Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri ilə B.Səmədova rayon ərazisində saxlanılıb, soyğunçuluq yolu ilə ələ keçirdiyi qızıl-zinət əşyaları ondan aşkarlanaraq maddi sübut kimi götürülüb. Həmin şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Faktla bağlı araşdırma aparılır. B.Səmədovanın analoji cinayət əməllərindən zərər çəkən başqa şəxslər varsa aidiyyəti üzrə polis orqanına məlumat vermələri xahiş olunur.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000